# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

24 aprel 2026-cı il, cümə
№ 070 (7137)
Qiymәti 60 qәpik




Milli azadlıqdan şirin nemət yoxdur!

## Xankəndinə aparan yolda "BİRİNCİ POST"...




Bax səh. 3

# Azərbaycan-Latviya münasibətləri yeni mərhələdə



Bax səh. 2

## Azərbaycanın səsini eşitmək və müdrikliyini görmək olduqca vacibdir

Bax səh. 3

## Birgə yeni iqtisadi hədəflər...

Bax səh. 4

## Dövlət büdcəsinin gəlirləri artıb

2026-cı ilin birinci rübündə ölkəmizdə qeyri-neft mənbələri əsasında iqtisadiyyatda yaradılan əlavə dəyər büdcədə bütün fiskal yığımlarda artımın təmin edilməsinə səbəb olub. İlk 3 ay ərzində fiskal yığımların artımında da yüksək dinamika qeydə alınıb. Bu dövrdə dövlət büdcəsinin gəlirləri 9,5 milyard manatı ötüb və büdcənin icrasında müsbət dinamika davam edib. Büdcə gəlirləri 9,1 milyard manat proqnoza qarşı 9 milyard 598,6 milyon manat və yaxud 458,5 milyon manat (5 faiz) çox icra edilib. Bu, cari ilin dövlət büdcəsinin illik proqnozlaşdırılan gəlirlərinin 24,9 faizinə bərabərdir.

Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert nəzərə alınmadan dövlət büdcəsinin gəlirləri 7,7 faiz çox icra edilməklə 6 milyard 388,6 milyon manat təşkil edib.

Dövlət büdcəsinin gəlirlərinin 4 milyard 702 milyon manatı və ya 49 faizi vergi orqanlarının xətti ilə daxilolmaların, 3 milyard 210 milyon manatı və ya 33,4 faizi Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin, 1 milyard 410 milyon manatı və ya 14,7 faizi gömrük orqanlarının xətti ilə daxilolmaların, 163,5 milyon manatı və ya 1,7 faizi dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmaların, 13,8 milyon manatı və ya 0,1 faizi dövlət əmlakının icarəyə verilməsindən daxilolmaların, 99,2 milyon manatı və ya 1,1 faizi sair daxilolmaların payına düşür.

Beləliklə, dövlət büdcəsinin gəlirlərində proqnoza nisbətən vergi orqanlarının xətti ilə 472,5 milyon manat və ya 11,2 faiz, gömrük orqanlarının xətti ilə 5,1 milyon manat və ya 0,4 faiz çox vəsait daxil olub. Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert proqnozlaşdırılan səviyyədə qalıb...

Bax səh. 6

## Tarixin daş möhürləri...



Bax səh. 5

## Hindistan hökumətinə çağırış!

Bax səh. 4

## Saxta təşkilatın saxta iddiaları...

Bax səh. 5

## Vicdan əzab verərmi?

Bax səh. 7

## Ağsaqqallıq ənənəsi milli irsimizin ən mühüm dayaqlarından biridir

Hörmətli qurultay iştirakçıları!

Sizi Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayının işə başlaması münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan xalqının qədim mənəvi-əxlaqi dəyərlərinə söykənən ağsaqqallıq ənənəsi milli irsimizin ən mühüm dayaqlarından biridir. Ağsaqqallara hörmət həm Azərbaycan şifahi xalq ədəbiyyatında, həm də yazılı ədəbiyyatında fundamental bir dəyər kimi daim ön planda yer alır. Təsadüfi deyil ki, xalqımızın tarixi keçmişini, adət-ənənələrini əks etdirən "Kitabi-Dədə Qorqud" dastanında ağsaqqal nəsihətinə və sözünə ehtiram ən yüksək əxlaqi keyfiyyət kimi təsvir olunub.

Xalqımızın tarixi ənənələrini rəhbər tutaraq üzərilərinə düşən vacib missiyanı daim uğurla həyata keçirən ağsaqqallarımız cəmiyyətdə əxlaqi-mənəvi dəyərlərin qorunub saxlanmasının və nəsillərarası varisliyin təminatçısı olaraq çıxış edirlər. Eyni zamanda milli dövlətçilik ənənələrinin davam etdirilməsi və vətəndaş həmrəyliyinin möhkəmləndirilməsində ağsaqqallarımızın müstəsna xidmətləri vardır.

Məhz ağsaqqallarımızdan vətənpərvərlik və fədakarlıq tərbiyəsi alan gənclərimiz Vətən müharibəsində şanlı Zəfərimizin əldə olunmasında mühüm rol oynayıblar. 30 ildən çox torpaq həsrəti ilə yaşamış, müharibənin ağrı-acısını görmüş böyüklərimizin gənc nəslə aşıladığı milli qürur və Vətən sevgisi sayəsində xalqımızın müasir hərb tarixinə yeni bir səhifə yazıldı.

Sevindirici haldır ki, bu gün...

Bax səh. 2

## İyul sammitinə hazırlıq...



Bax səh. 7

## "Rəqəmsal pul" və qızıl bazarında yenidən canlanma



Bax səh. 6

# Ağsaqqallıq ənənəsi milli irsimizin ən mühüm dayaqlarından biridir

## Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayının iştirakçılarına



Hörmətli qurultay iştirakçıları!

Sizi Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayının işə başlaması münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan xalqının qədim mənəvi-əxlaqi dəyərlərinə söykənən ağsaqqallıq ənənəsi milli irsimizin ən mühüm dayaqlarından biridir. Ağsaqqallara hörmət həm Azərbaycan şifahi xalq ədəbiyyatında, həm də yazılı ədəbiyyatında fundamental bir dəyər kimi daim ön planda yer alır. Təsadüfi deyil ki, xalqımızın tarixi keçmişini, adət-ənənələrini əks etdirən "Kitabi-Dədə Qorqud" dastanında ağsaqqal nəsihətinə və sözünə ehtiram ən yüksək əxlaqi keyfiyyət kimi təsvir olunub.

Xalqımızın tarixi ənənələrini rəhbər tutaraq üzərilərinə düşən vacib missiyanı daim uğurla həyata keçirən ağsaqqallarımız cəmiyyətdə əxlaqi-mənəvi dəyərlərin qorunub saxlanmasının və nəsillərarası varisliyin təminatçısı olaraq çıxış edirlər. Eyni zamanda milli dövlətçilik ənənələrinin davam etdirilməsi və vətəndaş həmrəyliyinin möhkəmləndirilməsində ağsaqqallarımızın müstəsna xidmətləri vardır.

Məhz ağsaqqallarımızdan vətənpərvərlik və fədakarlıq tərbiyəsi alan gənclərimiz Vətən müharibəsində şanlı Zəfərimizin əldə olunmasında mühüm rol oynayıblar. 30 ildən çox torpaq həsrəti ilə yaşamış, müharibənin ağrı-acısını görmüş böyüklərimizin gənc nəslə aşıladığı milli qürur və Vətən sevgisi sayəsində xalqımızın müasir hərb tarixinə yeni bir səhifə yazıldı.

Sevindirici haldır ki, bu gün ağsaqqallarımız ölkə həyatının bütün sahələrində fəal iştirak edirlər. Dünyada artan təhdidlər, xüsusilə də qloballaşma və sosial şəbəkə platformalarının zərərli təsirləri nəticəsində bir çox ölkələrdə milli-mənəvi və ailə dəyərlərinin deformasiyaya uğraması Azərbaycanda mövcud olan ağsaqqallıq institutunun əhəmiyyətini və rolunu daha qabarıq şəkildə vurğulayır. Gənclərimizi milli vətənpərvərlik və öz köklərinə bağlı ruhda yetişdirmək, onları düzgün yola istiqamətləndirmək ağsaqqallarımız qarşısında duran əsas vəzifələrdən biridir.

Keçən əsrin sonlarında yaranan və sıralarında həyatını cəmiyyətə xidmətə həsr etmiş tanınmış xadimləri birləşdirən Azərbaycan Ağsaqqallar Şurası böyük yol keçərək bu gün də ölkəmizin inkişafına töhfə verir. Şura ölkənin ictimai-siyasi və humanitar inkişafında, cəmiyyət həyatının aktual məsələlərinin həllində və gənc nəslin tərbiyəsində iştirak edir.

İnanıram ki, IX Qurultayda aparılacaq müzakirələr və qəbul olunacaq qərarlar Ağsaqqallar Şurasının fəaliyyətinin təkmilləşdirilməsinə, ölkənin ictimai-siyasi həyatında təşkilatın rolunun daha da güclənməsinə xidmət edəcəkdir.

Qurultayın işinə uğurlar, hər birinizə isə möhkəm cansağlığı, uzun ömür, dəyərli ictimai fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 22 aprel 2026-cı il**

# Azərbaycan-Latviya münasibətləri yeni mərhələdə

Hər cəhətdən uğurlu inkişaf modelinə malik olan müstəqil Azərbaycanın milli maraqlara əsaslanan və multiregional səciyyə daşıyan xarici siyasət kursunda yaxın və uzaq coğrafiyalarda yerləşən ölkələrlə strateji tərəfdaşlıq münasibətlərinin qurulması xətti xüsusi yer tutur. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi bu davamlı kursun uğurla reallaşdırılmasının nəticəsidir ki, hazırda respublikamızın həm geniş İslam coğrafiyasında, həm də Avropa İttifaqı (Aİ) məkanında çoxlu sayda strateji tərəfdaşlıq münasibətləri qurduğu ölkələr var.

Belə ölkələrdən biri də Baltikyanı regionun önəmli dövlətlərindən olan Latviyadır. Ötən dövrdə tərəflərin qarşılıqlı xoş niyyəti əsasında iki ölkə arasında müxtəlif istiqamətlərdə yaxşı əlaqələr qurulub və bir-birinə möhkəm inam yaranıb. Bu günlərdə Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin Azərbaycana rəsmi səfərə gəlməsi və səfər çərçivəsində önəmli müzakirələrin aparılması, müxtəlif sənədlərin imzalanması ikitərəfli münasibətlərin keyfiyyətcə yeni səviyyəyə yüksəldiyini təsdiqləyir.





## Siyasi dialoqun yüksək dinamikası

Azərbaycan-Latviya münasibətlərində diqqətçəkən ən mühüm məqamlardan biri ondan ibarətdir ki, qarşılıqlı münasibətlərin inkişafına hər iki tərəfdən güclü siyasi iradə nümayiş etdirlir. Eyni zamanda, ölkələrimizin cəmiyyətlərində də bir-birinə dərin rəğbət hissi var. Bu da ilk növbədə tarixlə bağlıdır. Azərbaycanla Latviya uzun illər ərzində keçmiş ittifaqın tərkibində olub və eyni siyasi sitemdən keçib. Həmin dövrdə respublikalarımız arasında əlaqələr yaranıb, sərbəst gediş-gəliş olub, cəmiyyətlərimiz bir-birini tanımaq imkanı qazanıb.

Hazırda Azərbaycanla Latviya arasında siyasi dialoq yüksək dinamikaya malik olması ilə fərqlənir. Latviya Respublikası Azərbaycan Respublikasının müstəqilliyini 8 yanvar 1992-ci ildə tanıyıb. İki ölkə arasında diplomatik münasibətlər 11 yanvar 1994-cü ildə qurulub. Azərbaycanın Latviyada səfirliyi 2005-ci ildə, dost ölkənin respublikamızda səfirliyi isə 2006-cı ildə açılıb.

İki dost ölkə arasında siyasi, iqtisadi və humanitar sahələri əhatə edən əməkdaşlıq əlaqələrinin uğurla inkişaf etməsində dövlət başçılarının və digər yüksəksəviyyəli rəsmilərin qarşılıqlı səfərləri mühüm rol oynayır. Azərbaycan və Latviyanın dövlət başçılarının ilk görüşü 8 iyul 1997-ci ildə NATO-nun Madriddə keçirilən Zirvə toplantısı zamanı olub. Həmin tarixdə Azərbaycan Prezidenti Heydər Əliyev ilə Latviya Prezidenti Quntis Ulmanis arasında görüş keçirilib. 10 sentyabr 1999-cu ildə Yaltada "Baltik-Qara dəniz əməkdaşlığı: XXI əsr Avropa inteqrasiyasına doğru ayırıcı xətlərsiz" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfrans zamanı Azərbaycan Prezidenti Heydər Əliyev Latviyanın yeni seçilmiş Prezidenti V.Vike-Frayberqa ilə görüşüb.

Sonrakı mərhələdə Prezident İlham Əliyev Latviya ilə əlaqələrin inkişafına xüsusi önəm verib və dövlətimizin başçısının bu ölkəyə bir neçə dəfə uğurlu səfəri baş tutub. Prezident İlham Əliyev 3-5 oktyabr 2006-cı il tarixində Latviyada dövlət səfərində olub. Bundan sonra dövlətimizin başçısının 17-18 yanvar 2017-ci il və 16-18 iyul 2017-ci il tarixlərində olmaqla iki dəfə rəsmi səfəri baş tutub.

Eyni zamanda, Latviyanın dövlət başçıları da müntəzəm qaydada respublikamıza səfərə gəliblər. Dost ölkənin dövlət başçısının Azərbaycana bundan əvvəlki səfəri 8-9 mart 2023-cü il tarixinə təsadüf edib.

## Parlamentlər səviyyəsində əməkdaşlıq

İki ölkə arasında parlamentlərarası münasibətlər də yüksək səviyyədədir. Milli Məclisdə Azərbaycan-Latviya parlamentlərarası əlaqələr üzrə işçi qrup, həmçinin Latviya Seymində Azərbaycan parlamenti ilə əməkdaşlığın təşviqi Qrupu fəaliyyət göstərir. Qruplar arasında sıx təmaslar formalaşıb. Yeri gəlmişkən, ölkəmizdə rəsmi səfərdə olan Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin başçılıq etdiyi nümayəndə heyəti aprelin 22-də Milli Məclisə gəlib. Latviya Prezidenti əvvəlcə Milli Məclisin plenar iclas zalı ilə tanış olub. Ulu Öndər Heydər Əliyevin adını daşıyan xatirə zalına gələn qonaqlar burada Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyatının və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlara baxıblar. Latviya Prezidenti buradakı Xatirə kitabına ürək sözlərini yazıb.

Milli Məclisdə aparılan müzakirələrdə ikitərəfli əlaqələrin inkişafı üçün yüksəksəviyyəli qarşılıqlı səfərlərin və müntəzəm siyasi dialoqun vacibliyini qeyd edən Sahibə Qafarova bu baxımdan ölkə başçılarının qarşılıqlı səfərlərinin və müxtəlif tədbirlərdə mütəmadi görüşlərinin qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi üçün yaxşı imkanlar yaratdığını vurğulayıb.

Azərbaycana bu səfəri zamanı müzakirə olunmuş məsələlərin və imzalanmış sənədlərin əhəmiyyətindən danışan Latviyanın dövlət başçısı tezliklə bu sənədlərin və əldə edilmiş razılaşmaların öz bəhrəsini verəcəyinə əminliyini ifadə edib.




## Hüquqi bazanın davamlı olaraq möhkəmləndirilməsi

Azərbaycanla Latviya arasında siyasi dialoqun yüksək səviyyədə olması digər istiqamətlərdə də əlaqələrin inkişafına öz müsbət təsirini göstərir. İki ölkənin yüksək səviyyəli rəsmiləri həmçinin beynəlxalq platformalarda tez-tez bir araya gəlir və faydalı fikir mübadiləsi aparırlar. Latviya keçmiş Dağlıq Qarabağ münaqişəsi dönəmində hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyan ölkələr sırasında yer alıb. Avropa İttifaqının üzvü olan bu ölkə Azərbaycanın Avropa təsisatları, o cümlədən də Aİ ilə əlaqələrinin inkişafına davamlı dəstək verir. Eyni zamanda, dost ölkə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əvəzsiz rol oynadığını təşviq edir. Dost ölkədə həmçinin yeni mərhələdə Avropanın mühüm təchizat mənbəyinə çevriləcək TRIPP marşrutunun (Zəngəzur dəhlizi) yaradılmasında Azərbaycanın səyləri yüksək dəyərləndirilir.

Beləliklə, aydın olur ki, Azərbaycan Latviya, Latviya isə Azərbaycan üçün çox önəmli ölkələrdirlər. İki dövlətin nümunəvi əməkdaşlığı Xəzər və Baltik dənizlərinin əhatə etdiyi geniş coğrafiyada keyfiyyətcə yeni reallıqlar formalaşdıra bilər və bu fürsətdən mütləq istifadə olunmalıdır.

Azərbaycanla Latviya arasında strateji mahiyyət daşıyan əlaqələrin inkişafına dövlətlər səviyyəsində göstərilən qətiyyətli siyasi iradə, cəmiyyətlərin qarşılıqlı rəğbəti öz yerində. Bütün bunlar, əlbəttə ki, təqdirəlayiq haldır. Eyni zamanda, hər iki dövlət çoxistiqamətli əlaqələrin daha dinamik inkişafını təmin etmək məqsədilə hüquqi bazanın möhkəmləndirilməsini diqqət mərkəzində saxlayır. Bunun təsdiqi olaraq qeyd edək ki, Latviya Prezidentinin respublikamıza son səfərinədək ölkələrimiz arasında 45 sənəd imzalanmışdı. Prezident İlham Əliyevin 2017-ci ildə Latviyaya rəsmi səfəri zamanı imzalanmış "Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə" əlaqələrimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Latviyanın dövlət başçısının respublikamıza bəhs olunan son səfəri çərçivəsində isə Prezident İlham Əliyev və Prezident Edqars Rinkeviçs "Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə Bəyanatı"nı qəbul ediblər. Səfər çərçivəsində həmçinin dövlət başçılarının iştirakı ilə imzalanan daha 5 sənəd mübadilə edilib.

*Mübariz FEYİZLİ*

# Azərbaycanın səsini eşitmək və müdrikliyini görmək olduqca vacibdir

## Latviya Bakının münaqişələrin həllinə yönəlik çağırışlarını və mövqeyini yüksək qiymətləndirir

XXI əsr qlobal münasibətlər sisteminə yeniliklər gətirməklə yanaşı, bəzi dövlətləri də yürütdükləri xarici siyasət kursunda korrektələr etmək məcburiyyətində qoydu. Kontingentlərarası münasibətlərdə "dəngələrin" qorunması, qütblərarası mübarizələrdə öz yerini müəyyənləşdirmək, hansısa bir konfrantasiyaya münasibətdə mütləq tərəf mövqeyi sərgiləmək kimi yanaşmalar həm ikitərəfli, həm də çoxtərəfli qarşılıqlı əlaqələrə öz təsirini göstərir.

Azərbaycan isə uzun illərdir ki, daha fərqli, qətiyyətli və hərtərəfli mövqeyi ilə seçilir - Bakının yürütdüyü xarici siyasət kursunda coğrafi yerləşim və ya kontingent fərqi, eləcə də yaxın-uzaq coğrafiyada baş verən konfrantasiyalara münasibətdə birtərəflilik müşahidə oluna bilməz. Azərbaycan bütün ölkə və təşkilatlarla, eləcə də qonşu dövlətlərlə əlaqələrini qarşılıqlı milli maraqlar, beynəlxalq hüquq və ədalət prinsipləri üzərində müəyyənləşdirir. Bunun nəticəsidir ki, ayrı - ayrı qitələrin təmsilçiləri, Qərb və ya Şərq ölkələri, Qlobal Cənub dövlətləri, bir sözlə, bütün dövlətlər Bakı ilə əlaqələrini yüksək dəyərləndirir, münasibətlərin dost müstəvisindəki inkişafını qiymətləndirirlər. Azərbaycan istər Avropa İttifaqı dövlətləri, istər İslam ölkələri, istər Türk dövlətləri, istərsə də digər regionların təmsilçiləri ilə mühüm əlaqələr qurmaqda maraqlı olduğunu irəli sürür.



Azərbaycan ilə Latviya arasındakı əlaqələr də bu mənada mühüm əhəmiyyət kəsb edir. Uzun illər hər iki ölkə vahid ittifaq çərçivəsində - SSRİ-də birgə təmsil olunublar. Müstəqillik əldə etdikdən sonra da ikitərəfli münasibətlər qorunub, inkişaf etdirilir. Bu davamlılıq Latviya Prezidenti Edqars Rinkeviçsin Bakıya səfəri çərçivəsində səslənən bəyanatlarda da öz əksini tapır.

**Strateji Tərəfdaşlıq haqqında Bəyannamə münasibətləri ən yüksək səviyyəyə qaldırır**

Vurğulandığı kimi, iki ölkə arasında mühüm ikitərəfli əlaqələr var və bu əlaqələr yüksələn xəttlə inkişaf edir. Xüsusilə, Prezident İlham Əliyevin 2017-ci ilin iyulunda Latviyaya səfəri çərçivəsində imzalanan hüquqi sənədlər bu əlaqələri dinamik səviyyəyə çatdırıb. Qeyd edək ki, həmin səfər çərçivəsində Bakı ilə Riqa arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə imzalanıb. Bundan başqa, imzalanan "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Latviya Respublikasının Nəqliyyat Nazirliyi arasında beynəlxalq kombinə edilmiş yükdaşımaları haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Latviya Respublikasının İqtisadiyyat Nazirliyi arasında tikintidə təhlükəsizliyə dövlət nəzarəti sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş" əlaqələrin daha yüksək müstəviyə qədəm qoymasına şərait yaradıb. Prezident İlham Əliyev aprelin 22-də mətbuata bəyanatında ikitərəfli gündəliyin müxtəlif aspektlərinin, o cümlədən beynəlxalq əhəmiyyət kəsb edən məsələlərin həm təkbətək görüşdə, həm də nümayəndə heyətlərinin iştirakı ilə geniş şəkildə müzakirə edildiyini bildirib: "Doqquz il əvvəl ölkələrimiz arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamə hüquqi çərçivəni yaradır və münasibətlərimizi ən yüksək səviyyəyə qaldırır. Biz elə bunun əsasında tərəfdaşlığı müxtəlif sahələrdə inkişaf etdirmək üçün sıx çalışmışıq".

Dövlət başçımız ölkələrimiz arasında münasibətlərin çox möhkəm çərçivəyə əsaslandığını deyib: "Eyni zamanda, düşünürəm ki, onun mühüm hissəsini cənab Prezidentlə olan şəxsi münasibətlərimiz təşkil edir. Biz bir-birimizi uzun illərdir ki, tanıyırıq və fikrimcə, bəlkə də 20 ilə yaxındır. Şəxsən mən çox şadam ki, əziz dostumuzu və onun nümayəndə heyətini Bakıda qəbul edirəm".

Latviya Prezidenti Edqars Rinkeviçs də bəyanatında ikitərəfli əlaqələrin inkişafını yüksək dəyərləndirərək budəfəki səfərinin 2017-ci ildə imzalanmış strateji tərəfdaşlığımızın prinsiplərini bir daha təsdiq etdiyini dilə gətirib: "Düşünürəm ki, bu gün qəbul etdiyimiz Bəyanatda strateji tərəfdaşlığımızı necə irəli aparmaq istədiyimizlə bağlı bəzi addımlar atmışıq".

**Müharibədə olan ölkələr üçün vacib nümunə...**

Müasir dövrdə qlobal dünyanı narahat edən ən əsas məsələ təhlükəsizlik amilidir. Nəzərə alınmalıdır ki, Yaxın Şərqdə və Şərqi Avropada cərəyan edən konfrantasiyalar bu və ya digər şəkildə hər iki dövləti narahat edir. Bununla yanaşı isə, 2020-ci ildə Vətən müharibəsindən sonra Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni reallıqlar təhlükəsizlik arxitektukrasının köklü şəkildə dəyişməsini şərtləndirib - Azərbaycan Şərq-Qərb arasında olduqca vacib (həm siyasi, həm iqtisadi, həm də ticari) bir regionda sabitliyin bərqərar olmasını təmin edib. Növbəti addımda isə Ermənistan ilə bağlanacaq sülh regiona yeni bir gələcək, yeni bir perspektiv vəd edir. Azərbaycanın iradəsi sayəsində reallaşan sülh prosesi bütövlükdə dünya üçün gözəl bir presedentdir. Mətbuata bəyanatında dövlətimizin başçısı Latviya Prezidentinə Azərbaycanla Ermənistan arasında çox perspektivli sülh prosesinə aid ən son məlumatları çatdırdığını qeyd edib: "Bu nümunə göstərir ki, məhz siyasi iradə və siyasi müdriklik, o cümlədən gələcəyə strateji baxışlar hadisələri təyin edir: Siz ya sonsuz müharibəni və ya müharibələri davam etdirirsiniz, yaxud beynəlxalq hüquq əsasında istədiyinizə nail olduqda birdəfəlik dayanırsınız və sülhə hazır olduğunuzu nümayiş etdirirsiniz. Düşünürəm ki, həmin nümunə hələ də müharibədə olan ölkələr üçün vacib ola bilər".

Latviya Prezidenti Edqars Rinkeviçs Prezident İlham Əliyevi və bütün Azərbaycan xalqını Azərbaycanla Ermənistan arasında sülh sazişi prosesinə başlanılması münasibətilə təbrik edib. "Biz bu məsələnin sürətli şəkildə irəliləməsinə ümid edirik. Biz bunu və Sizin bu məsələdəki mövqeyinizi çox dəstəkləyirik. Ümid edirik ki, təkcə nəinki regionun təhlükəsizliyi üçün, ümumilikdə bütün dünya üçün önəmli olan bu sazişin yekunlaşmasını görəcəyik", -deyə Latviya Prezidenti qeyd edib.

**Latviya dəstəyini ifadə edir...**

Latviya həm də Avropa İttifaqının üzvüdür. Bu mənada, ikitərəfli əlaqələr həm də Aİ müstəvisində möhkəm təməllərə malikdir. Təşkilat ilə ölkəmiz arasında xüsusilə enerji dialoqu yüksək səviyyədədir - Bakı Avropa İttifaqının 10 dövlətinə qaz tədarük edir. Qaz təchizatı imkanları genişləndikcə, bu say da artacaq.

Latviya Azərbaycan ilə Aİ arasındakı münasibətlərin bütün sferalarda inkişafına dəstək göstərmək niyyətini açıqlayır. Prezident Edqars Rinkeviçs Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıq sahəsindəki müsbət addımlara tam dəstək ifadə edib. "Bu məsələ vizasız rejimin tətbiq edilməsidir, çünki biz çoxlu məsələləri müzakirə edə bilirik və biz bağlantı, daşımalar, birbaşa uçuşlarla bağlı bu qənaətə gəldik. Lakin Azərbaycan vətəndaşlarının Avropa İttifaqına və Avropa vətəndaşlarının sizin gözəl ölkənizə sərbəst çıxışı vacibdir. Çünki təkcə nəinki şirkətlər üçün, həmçinin xalqlararası təmaslar və turizm üçün böyük potensial mövcuddur", -deyə Latviya Prezidenti vurğulayıb.

Qeyd edək ki, Aİ ilə Azərbaycan arasında vizasız rejimin tətbiqi məsələsi uzun illərdir ki, müzakirə olunur. Hələ 2017-cı ildə vizasız rejimin tətbiqi imkanının istisna olmadığı bildirilirdi. Bunun üçün isə bir çox məsələlər, o cümlədən texniki məsələlər həll olunmalıdır. Çünki bu, təkcə bir ölkə ilə deyil, 27 üzv dövləti və vahid miqrasiya siyasətini əhatə edən sistemlə razılaşma deməkdir. Əsas mərhələlərdən biri Viza sadələşdirmə sazişidir ki, Bakı ilə Aİ arasında belə bir saziş artıq mövcuddur. Bundan başqa digər prosedurlar da həyata keçirilməlidir. Latviyanın bu məsələdə ölkəmizə dəstək ifadəsi olduqca mühüm bir amildir.

**Azərbaycanın müharibələrə münasibətdə humanitar yanaşması...**

Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində özününün praqmatik mövqeyi ilə fərqlənir. Ölkə qlobal və regional qarşıdurmalarda birbaşa tərəf olmur - əsas diqqəti beynəlxalq hüququn prinsiplərinə yönəldir. Bu yanaşma həm siyasi sabitliyin qorunmasına, həm də çoxtərəfli əməkdaşlığın inkişafına xidmət edir. Məsələn, Rusiya-Ukrayna müharibəsi fonunda Azərbaycanın mövqeyi münaqişənin hərbi deyil, diplomatik yollarla həllinin vacibliyini ortaya qoyur. Bakı eyni zamanda Ukraynaya humanitar yardım göstərir. Bu yardım mülki əhalinin ehtiyaclarının qarşılanmasına yönəlib və siyasi deyil, humanitar xarakter daşıyır. Digər tərəfdən, Azərbaycan regionda yerləşən İrana da humanitar yardımlar edir. Bu siyasətin əsasını beynəlxalq hüquqa hörmət təşkil edir. Azərbaycan bütün tərəfləri münaqişələrin dinc, danışıqlar yolu ilə həllinə çağırır. Bu mövqe, xüsusilə Birləşmiş Millətlər Təşkilatı çərçivəsində qəbul olunmuş normalarla uzlaşır.

Latviya Prezidenti öz bəyanatında Bakının bu mövqeyini yüksək dəyərləndirib. Dövlət başçısı bildirib ki, "biz Azərbaycanın Ukraynaya humanitar yardımını yüksək dəyərləndiririk. Lakin biz, eyni zamanda, cənab Prezident və onun heyətinin İranda və Yaxın Şərqdə cərəyan edən hadisələrlə bağlı söylədiklərinə də qulaq asırıq. Bir daha fürsətdən istifadə edərək, bu yaxınlarda Azərbaycana qarşı edilmiş dron hücumları ilə bağlı Latviyanın bu məsələdə Azərbaycanla tam həmrəy olduğunu ifadə etmək istəyirəm". O, əlavə edib ki, biz vəziyyətin normallaşması üçün atıla biləcək və atılmalı addımları müzakirə etdik. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olaraq Latviya bütün ölkələrlə işləməyə və onları dinləməyə hazırdır: "Regional məsələlərə gəldikdə, Azərbaycanın səsini eşitmək və müdrikliyini görmək olduqca vacibdir".

***P.İSMAYILOV***

# Xankəndinə aparan yolda "BİRİNCİ POST"...

## Laçın postu suverenliyin bərpasında ilk addım idi

Laçın yolunda qurulan nəzarət postunun üzərindən keçən üç il, təkcə zaman ölçüsü deyil - bu, dövlət iradəsinin, strateji səbrin və ardıcıl siyasətin konkret nəticəyə çevrildiyi bir mərhələnin simvoludur. Uzun illər boyunca Ermənistanın işğal siyasəti və təcavüzü nəticəsində regionda formalaşmış qeyri-müəyyənlik, hüquqi boşluqlar və faktiki nəzarətsizlik mühiti, məhz bu addımla sistemli şəkildə aradan qaldırılmağa başladı. Laçın yolu artıq sadəcə coğrafi keçid deyil, suverenliyə gedən yol, dövlət sərhədlərinin real məzmun qazandığı bir məkana çevrildi.

Bu proses birdən-birə baş vermədi. Yolun nəzarətə götürülməsi, burada keçirilən aksiyalar və ardıcıl şəkildə atılan digər addımlar bir-birini tamamlayan strateji mərhələlər idi. Xüsusilə ekoloji fəalların aksiyaları beynəlxalq diqqəti regiona yönəltməklə yanaşı, qeyri-qanuni fəaliyyətlərin qarşısının alınması zərurətini də gündəmə gətirdi. Bu aksiyalar yalnız ictimai təşəbbüs kimi deyil, həm də dövlət maraqları ilə uzlaşan və hüquqi əsaslara söykənən bir vətəndaş mövqeyinin ifadəsi kimi yadda qaldı.

Laçın yolunda dövlət postunun qurulması isə bu prosesin kulminasiya nöqtəsi oldu. Bu addım Azərbaycanın öz ərazisində suveren hüquqlarını tam şəkildə bərpa etdiyini nümayiş etdirdi. Artıq ölkə sərhədləri formal xəritə anlayışından çıxaraq real nəzarət mexanizmləri ilə təmin olundu. Bu isə həm daxili təhlükəsizliyin möhkəmləndirilməsi, həm də regionda uzunmüddətli sabitliyin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi.

### Azərbaycan qanunun aliliyinin təmin olunması üçün qəti addımlar atdı...

Beləliklə, 2023-cü ilin 23 aprelində Azərbaycan özünün müstəqillik tarixinin ən əhəmiyyətli, ən tarixi və ən vacib addımlarından növbətisini atdı - bütün yol üzrə ermənilərin təxribatçı hərəkətlərinin qarşısı alındı, eyni zamanda, ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi quruldu. Mahiyyətinə, xarakterinə, yerləşdiyi coğrafyaya, əhəmiyyətinə və vacibliyinə görə "BİRİNCİ POST" ünvanı qazanan Laçın dövlət sərhəd-buraxılış məntəqəsi hər zaman havadarlarına güvənərək qeyri-qanuni həyat tərzi seçmiş, sürmüş və bu qeyri-qanuni fəaliyyəti artıq özünün həyat fəlsəfəsinə çevirmiş Ermənistanı, onu dəstəkləyən Qərbi və nəhayət həmin dövrdə artıq "son günləri"ni yaşayan separatçıları beynəlxalq hüquqa hörmət etməyə növbəti çağırış idi. Azərbaycan hər zaman olduğu kimi, regionda qanunun aliliyinin təmin olunması üçün qəti addımları seçilmişdi. Dövlət sərhəd-buraxılış məntəqəsinin qurulması suveren hüquqlarımız çərçivəsində idi - Azərbaycan hər zaman beynəlxalq hüquqa hörmətlə yanaşıb. Beləliklə, artıq Ermənistandan Qarabağa gedən şəxslər və ya maşınlar Azərbaycanın dövlət sərhəd - buraxılış məntəqəsinin nəzarəti altında hərəkət edirdi. Orada müvafiq hüquqi prosedur qaydaları tətbiq olunurdu. Bütün dünya Azərbaycanın beynəlxalq hüquqa, qanunlara söykənən uğurlu addımlarını həsədlə izləyirdi - Azərbaycan özünün Qərb sərhəddinə son 200 ildə ilk dəfə idi ki, özü nəzarət edirdi. Eyi zamanda, Laçın postu Azərbaycanın ərazi bütövluyünün rəsmi təsdiqi idi - bu post separatizmin, erməni faşizminin başının tam əzilməsi üçün ən real və təsiredici mexanizmə çevrildi.




### "Bir nömrəli" postdan üzü Xankəndinə...

Bütün bu uğurlar Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü və qətiyyətli siyasətinin real nəticəsi idi. Dövlət başçısının rəhbərliyi ilə müəyyən edilən siyasi kurs, milli maraqları əsas götürərək, dövlət suverenliyinin tam bərpasını prioritet istiqamət kimi formalaşdırdı. Laçın yolu ətrafında baş verənlər də məhz bu strateji baxışın ortaya çıxardığı mühüm situasiyanın başlanğıcı kimi dəyərləndirilməlidir. Laçın postu dövlət qarşısında "bir nömrəli post" statusu qazanmaqla gələcək zəfərlərin açarı rolunda çıxış etdi. 2023-cü ilin aprelindən başlanan bu yol sentyabrda tariximizdə yeni bir səhifə açdı. Sentyabrın 19-da başlanan və cəmi 23 saat davam edən lokal antiterror tədbirləri nəticəsində separatizm yuvası darmadağın edildi. Dövlətimiz özünün şərtlərini bəyan etdi: antiterror tədbirlərinin dayandırılması üçün qanunsuz erməni silahlı dəstələri ağ bayraq qaldırmalı, bütün silahlar təhvil verilməli, qanunsuz rejim özünü buraxmalıdır. Bildirilirdi ki, əks təqdirdə, antiterror tədbirləri sona qədər davam etdiriləcək. Erməni terrorçuları irəli sürülən şərtlərlə təslim oldular. Sentyabrın 19-dan sentyabrın 20-si günün birinci yarısına qədər davam edən lokal antiterror tədbirləri Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələrinin silahı yerə qoyub və təslim olmaları ilə dayandırıldı. Məhz Laçın postunun qurulması bu böyük uğura yol açdı.

### İşıqlı gələcəyin təməli...

Artıq Ermənistan ilə Azərbaycan arasında yeni bir mərhələ - sülh prosesi yaşanmaqdadır. Ötən ilin avqustundan beynəlxalq səviyyədə təsdiqlənən bu proses bölgə üçün yeni bir gələcək vəd edir. Rəsmi İrəvanın sazişi imzalaması ilə Cənubi Qafqaz özünün yeni perspektivlərini elan edəcək. Bütün bu reallıqların banisi, memarı Azərbaycan dövləti və dövlətimizin Prezidentidir - Laçın yolu isə bu işıqlı gələcəyin təməlidir...

***P.İSMAYILOV***

# Birgə yeni iqtisadi hədəflər...

## İmzalanmış sənədlər Azərbaycan-Latviya əlaqələrinin gələcək inkişafını təmin edir

Azərbaycan və Latviya arasında otuz ildən çox davam edən əlaqələr qarşılıqlı hörmət, etimad və tərəfdaşlığa əsaslanır. Rəsmi Bakı Latviya ilə əlaqələrin davamlı olaraq möhkəmləndirilməsinə böyük əhəmiyyət verir və əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial mövcuddur.

Azərbaycan həmişə Latviya üçün Cənubi Qafqazda və əslində daha geniş regionda əsas siyasət və ticarət tərəfdaşı olub, iqtisadi proqramlarda fəal mövqe nümayiş etdirilir. Həmçinin ölkəmizdə etibarlı və əlverişli biznes mühitinin mövcudluğu latviyalı sahibkarları Azərbaycana investisiya yatırmağa, eləcə də respublikamızın nəqliyyat və logistika imkanlarından səmərəli istifadəsi üçün əla fürsətlər yaradır.

Prezident Edqars Rinkeviçsin ölkəmizə səfəri isə ikitərəfli iqtisadi münasibətlərin yeni dövrə daxil olması və gələcək dayanıqlı inkişaf arxitekturasının möhkəmlənməsi üçün mühüm əhəmiyyət kəsb edir. Cənab Rinkeviçsin vurğuladığı kimi, Latviya Azərbaycanı mühüm iqtisadi tərəfdaşıdır, bütün sahələr üzrə münasibətləri inkişaf etdirməkdə maraqlıdır. Yaxın Şərqdə və Avropada siyasi hadisələr, regional təhlükəsizlik amilləri iqtisadi əməkdaşlığın real dəyərini daha da artırır və tərəflər hazırkı şəraitə uyğun ticari-iqtisadi təmasları praktiki olaraq yüksəltmək niyyətindədir.

Dövlət başçılarının mətbuata bəyanatlarında da siyasi-iqtisadi-investisiya və regional əməkdaşlığın gücləndirilməsi əsas prioritetlər kimi diqqətə çatdırıldı. Eyni zamanda, tərəflər arasında imzalanan yeni sazişlər iqtisadi çərçivə olmaqla, təmasları daha da irəliyə aparmaqda mühüm əhəmiyyət kəsb edir. Xüsusilə də aqrar sahə və qida təhlükəsizliyi üzrə anlaşma sənədləri əlaqələrin möhkəmlənməsinə güclü baza yaradır.

## Hökumətlərarası Komissiya qarşılıqlı biznes fəaliyyətini təşviq edir

Ölkələr arasında iqtisadi bağlantıların möhkəmləndirilməsində Azərbaycan-Latviya Hökumətlərarası Komissiyanın fəaliyyəti də mühüm əhəmiyyət daşıyır. Aprelin 16-da Şuşada keçirilən Hökumətlərarası Komissiyanın 9-cu iclasında ticarəti və qarşılıqlı sərmayələrin artırılması, energetika, daşımalar, müdafiə sənayesi, nəqliyyat, əczaçılıq, rəqəmsallaşma və digər sahələrdə birgə əməkdaşlıq məsələləri müzakirə olunub. Azərbaycan hökumətinin təmin etdiyi əlverişli investisiya mühiti və sahibkarlara tətbiq etdiyi vergi-gömrük-sosial güzəştlər, iqtisadi stimullar hazırda bölgədə xarici biznes icması üçün geniş meydan yaradıb, son aylarda qeyri-rezidentlərin açdığı müəssisələrdə istehsal və emal sahələri aktiv fəaliyyət göstərir. Bu proseslərdə latviyalı iş adamları üçün də imkanlar böyükdür, onların azad edilmiş ərazilərdə biznes layihələrinə qoşulacağı istisna olunmur. Eyni zamanda, Azərbaycan hökuməti genişmiqyaslı yenidənqurma və bərpa işlərində Latviyanın texnoloji imkanlarından və innovasiya təcrübələrindən istifadə etmək niyyətindədir. Latviyanın kənd təsərrüfatı naziri, Hökumətlərarası Komissiyanın Latviya tərəfindən həmsədri Armands Krauze bildirib ki, aqrar sahədə ticarətin artırılması yolları araşdırıldı və imkanların hər iki tərəf üçün bir-birini tamamlaya biləcəyinə əminlik var. Eləcə də Latviya meşələr ölkəsidir və meşə ehtiyatlarının idarə olunmasında zəngin təcrübəsindən Azərbaycanın da faydalanması əhəmiyyətlidir. Xüsusilə də azad edilmiş ərazilərdə meşəçilik işlərinin icrasında imkanların araşdırılması nəzərdə tutulur.




## Biznes-forumda yeni prioritetlər müəyyən edildi

Prezidentlər İlham Əliyev və Edqars Rinkeviçsin iştirakı ilə keçirilən Azərbaycan-Latviya biznes-forumu da iqtisadi münasibətlərin inkişafında mühüm və faydalı platforma hesab edilə bilər. Dövlət başçılarının vurğuladığı kimi biznes-forum işgüzar əlaqələrin qurulmasında, qarşılıqlı sərmayələr üçün imkanların tapılmasında, birgə istehsalın və bir sıra digər işlərin qurulmasında mühüm əhəmiyyət daşıyır. Sözsüz ki, istənilən biznes fəaliyyətinin arxasında bir neçə amil dayanır və burada ilk növbədə, ölkədəki sabitlik mühüm rol oynayır. Azərbaycan və Litva sabitliyin təmin edildiyi ölkələr kimi bu sahədə möhkəm təmaslar qurmağa qadirdir. Eləcə də, hər iki ölkədəki biznes və investisiya mühiti, kommunikasiya bağlantıları, ixrac bazarlarına çıxış imkanları və daxili bazarın həcmi kimi bir çox amillər qarşılıqlı iqtisadi potensialları səfərbər etməyə imkan verir.

Həmçinin güclü maliyyə sabitliyi dayanıqlı inkişafın əsas atributlarından biridir. İlham Əliyevin də vurğuladığı kimi istər yerli, istərsə də xarici investorlar üçün maliyyə sabitliyi mühüm əhəmiyyət kəsb edir. "Bu sahədə də yaxşı nailiyyətlər haqqında danışa bilərik. Maliyyə sistemimiz sabitdir. Biz strateji plana əsaslanaraq borclanmadan asılılığımızı tədricən azaltdıq. Bu gün biz yalnız yüksək texnoloji fəaliyyət tələb edən layihələr üçün Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Asiya İnfrastruktur İnvestisiya Bankı və digər bu kimi aparıcı beynəlxalq qurumlardan kredit alırıq. Xarici borcumuz ÜDM-in 6,1 faizinə bərabərdir. Valyuta və qızıl ehtiyatlarımız xarici borcumuzu 18 dəfədən çox üstələyir". Eləcə də Azərbaycan son 20 il ərzində iqtisadiyyatına 350 milyard dollardan çox investisiya cəlb etməyə nail olub ki, həmin sərmayənin yarısı (170 milyard dollar) xarici mənbələrdən gələn investisiyalardır. Bu və digər amillər Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycan üçün möhkəm maliyyə arxitekturası olmaqla, latviyalı maliyyə sektorunun təmsilçilərinin də birgə fəaliyyətləri genişləndirməkdə mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan hazırda neft və qazdan asılı olan bir dövlətdən öz iqtisadiyyatının şaxələndirilməklə qeyri-neft mənbələrinin ixracını təmin edən, regional daşınmaların mərkəzi olan ölkəyə çevrilməkdədir. Hazırda sürətlə aparılan sənaye quruculuğu ÜDM-də qeyri-neft sənayesinin payının 50 faizdən artaraq 70 faizi çatmasına səbəb olub və bu amil xarici ölkələrə ixracın artırılmasına baza yaradır. Hazırda ölkəmiz ixracatın şaxələndirilməsi üzərində fəal işləyir, qeyri-neft-qaz sektoruna aid sənaye və iqtisadiyyat artan hasilatı beynəlxalq bazarlarda, ilk növbədə Avropa bazarlarında artan tələbatla uzlaşdırmağa çalışır. Bu isə ölkəmizin Avropa və Baltikyanı regionda enerji və qeyri-enerji ixrac blokları qurmaq iradəsinin göstəricisidir.

## Biznes Əməkdaşlıq Şurasının yaradılması nəzərdə tutulur

Azərbaycanın əlverişli coğrafi mövqeyi Latviya üçün də cəlbedicidir. Qlobal nəqliyyat-logistika zəncirlərinin pozulduğu dövrdə Orta Dəhlizdə mövqeyini möhkəmləndirən Azərbaycan, eləcə də Baltik regionunda strateji logistik mərkəzlərdən hesab edilən Latviya Baltik-Qara Dəniz-Xəzər bağlantısında daha sıx birləşə bilər. Latviya isə Şimali və Mərkəzi Avropa üçün giriş qapısıdır. Bu isə qlobal logistika zəncirlərində daha möhkəm platformanın qurulmasını labüdləşdirir.

Perspektiv planlara Avropa İttifaqı zonasındakı enerji aktivlərinə investisiya qoymaq, müasir enerji formatları qurmaq daxildir. Beləliklə, Aİ regionunda enerji və resurs təchizatında, kommunikasiya bağlantısında etibarlı dövlət olan Azərbaycanın enerji ixracını şaxələndirməsi Baltikyanı bölgədə dayanıqlı enerji bazarının möhkəmlənməsi üçün də vacib amillərdən biridir. Eləcə də Riqa Azərbaycanın istehsal etdiyi məhsulların Avropa bazarına çıxışına kömək etməyə hazırdır.

Azərbaycanın bərpaolunan enerji strategiyası Latviyanın hədəf prinsipləri ilə üst-üstə düşür. Baltik ölkələri son illərdə hidrogen və təmiz enerji blokları yaratmaqla Avropada xüsusi irəliləyişlər etməkdədir. Bu baxımdan "yaşıl enerji" istehsalında dayanmadan müsbət nailiyyətlər qazanan Azərbaycanın nəhəng Günəş və külək potensialına malik bərpaolunan enerji mənbələri Latviya üçün də maraq doğurur. Nəzərə alsaq ki, həmin mənbələrin böyük bir qismi azad ərazilərdə yerləşir, bu nöqteyi-nəzərdən həmin bölgədə adıçəkilən Baltik ölkəsi tərəfindən ən müasir texnologiyaların qurulması mümkündür. Çünki həmin resursların gələcəkdə Avropa regionuna ixracı planlaşdırılır. Avropa Komissiyasının enerji siyasətini dəstəkləyən Latviyanın həmin strateji konsepsiyaya qoşulduğunu nəzərə alsaq, Azərbaycanla bərpaolunan enerji sahəsində möhkəm əməkdaşlıq qurulacağı şübhə doğurmur.

Eləcə də tərəflər arasında müdafiə sənayesi sahəsində əməkdaşlığı inkişaf etdirmək üçün böyük maraq var. Latviya bu sənaye sektorunda ən müasir innovasiyaları, süni zəka, fərqli həll variantlarını tətbiq edir. Dronlar, dron əleyhinə sistemlərdə modern texnoloji ixtiralara malikdir. Bu baxımdan, Azərbaycanla müdafiə sənayesində sıx əməkdaşlığın qurulması mühüm nəticələr verə bilər.

Ümumilikdə, hər iki ölkə ticarət dövriyyəsinin artırılması, investisiya, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, nəqliyyat, elm, təhsil, əmək, məşğulluq və əhalinin sosial müdafiəsi, şəhərsalma və tikinti, ətraf mühitin mühafizəsi və meşəçilik və digər sahələrdə ikitərəfli əməkdaşlığı daha da inkişaf etdirməyi vacib sayır. İki ölkənin işgüzar dairələri arasında əlaqələri gücləndirilmək və birgə təşəbbüsləri dəstəkləmək, eləcə də müəyyən edilmiş iqtisadi hədəflərə nail olmaq üçün effektiv platforma kimi Latviya-Azərbaycan Biznes Əməkdaşlıq Şurasının yaradılması nəzərdə tutulur.

Beləliklə, Prezident Edqars Rinkeviçsin Azərbaycana səfəri və imzalanan sənədlər ölkələrimiz arasında iqtisadi-investisiya və ticari münasibətlərin inkişafında yeni mərhələ açacaq.

***E.CƏFƏRLİ***

# Hindistan hökumətinə çağırış!

## BMT İnsan Hüquqları Şurasının ekspertləri siqhəsilli bloger Caqtar Sinq Cohalın azad olunmasını tələb edirlər

Son illərdə Hindistan hökumətinin siqh icmasına qarşı təzyiq və təqibləri daha da artıb. Bu vəziyyət beynəlxalq ictimaiyyətdə ciddi narahatlıq doğurur. Müxtəlif insan hüquqları təşkilatlarının hesabatları göstərir ki, Hindistan hökumətinin siqh fəallarına və diaspor nümayəndələrinə qarşı təqiblərinin coğrafiyası genişlənir və transmilli xarakter alır. Bu məsələ əvvəllər daha çox ABŞ və Kanada kontekstində müzakirə olunurdu, lakin faktlar göstərir ki, oxşar təzyiqlər siqh diasporunun fəal olduğu digər ölkələrdə də müşahidə edilir. Bu, siqh fəallarına qarşı aparılan siyasətin sərhəd tanımadığını göstərir.

**Caqtar Sinq Cohal Şotlandiya vətəndaşıdır**

Yeri gəlmişkən, BMT İnsan Hüquqları Şurasının ekspertləri Hindistanda uzun müddətdir qeyri-qanuni həbsdə saxlanılan Şotlandiya vətəndaşı, siqhəsilli bloger və insan hüquqları müdafiəçisi Caqtar Sinq Cohalın dərhal azad edilməsini tələb edən bəyanatla çıxış ediblər. Bakı Təşəbbüs Qrupundan verilən məlumata görə, Cohal 2017-ci ilin noyabr ayında həbs edilib. Ona sağçı hindu liderlərinə qarşı terror aktlarının planlanmasında iştirak etmək ittihamı irəli sürülüb. İşgəncələrin qarşısının alınması sahəsində ixtisaslaşmış xüsusi məruzəçilər də daxil olmaqla, BMT-nin 10 müstəqil eksperti birgə bəyanatda onun 8 ildən artıq müddətdir ki, azadlıqdan məhrum edildiyini və qeyri-qanuni həbsdə saxlanıldığını vurğulayaraq, məhkəmə işinin hələ də yekunlaşmadığını qeyd ediblər.

Caqtar Sinq Cohal siqh icmasının fəal üzvü, bloger və insan hüquqları müdafiəçisi olmaqla yanaşı, Hindistan dövlətinin siqh azlığına qarşı yürütdüyü siyasətin açıq tənqidçisi kimi tanınır. Onun fəaliyyəti əsasən Hindistan hökumətinin siqh icmasına qarşı həyata keçirdiyi sistemli zorakılıq aktlarını, dövlət səviyyəsində baş verdiyi insan hüquqları pozuntularını və etnik-dini azlıqlara qarşı tətbiq edilən ayrı-seçkilik siyasətini beynəlxalq ictimaiyyətə çatdırmaq üzərində qurulub.

**Hindistanda məhkuma işgəncə verilir**

BMT İnsan Hüquqları Şurasının ekspertləri bildiriblər ki, Cohal saxlanıldığı ilk 10 gün ərzində ailə üzvləri və vəkili ilə əlaqə saxlaya bilməyib. Onların sözlərinə görə, bu müddətdə o, Hindistan hüquq-mühafizə orqanları tərəfindən işgəncəyə, öldürülmə hədələrinə və digər qanunsuz rəftara məruz qalıb.

Bəyanatda qeyd olunur ki, Cohal 2025-ci ilin martında terrorizm ittihamı üzrə bəraət alsa da, hələ də həbsdə saxlanılır. Ekspertlər bunu təqsirsizlik prezumpsiyasına hörmətsizlik, eyni ittihamlar üzrə təkrar mühakimə və antiterror qanunvericiliyindən sui-istifadə kimi qiymətləndiriblər. Ekspertlər Hindistan hökumətini bütün əsassız ittihamları ləğv etməyə, Cohalı dərhal azad etməyə və işgəncə iddiaları üzrə müstəqil araşdırma aparmağa çağırıblar.

Məlumdur ki, transmilli repressiya yalnız fiziki təhdid və zorakılıqla məhdudlaşmır. Repressiya metodları arasında diaspor fəallarının izlənməsi, hədəfli dezinformasiya kampaniyaları, siyasi və diplomatik təzyiq vasitələri, miqrasiya məhdudiyyətləri, reputasiya hücumları və kiberhücumlar yer alır. Bu üsulların məqsədi siqh fəallarını susdurmaq, onların beynəlxalq platformalarda fəaliyyətini məhdudlaşdırmaq və diaspor daxilində qorxu mühiti yaratmaqdır. Vətəndaş cəmiyyəti təşəbbüsləri də bu məsələnin beynəlxalq səviyyədə diqqət mərkəzində qalmasında mühüm rol oynayır. Bakı Təşəbbüs Qrupu beynəlxalq hüquq çərçivəsində siqhlərin ədalətli mübarizəsinə dəstək vermək məqsədilə yanvarın 16-da Bakıda "Hindistanda siqhlərə və digər milli azlıqlara qarşı irqçilik və zorakılıq: mövcud reallıqlar" adlı beynəlxalq konfrans təşkil etmişdi. Tədbirdə Hindistanda siqhlərə və digər dini azlıqlara qarşı mövcud diskriminasiya və zorakılıq halları müzakirə olunub, beynəlxalq hüquq norma və prinsipləri çərçivəsində mübarizənin davam edəcəyi bildirilib.

**BTQ siqhlərin hüquqları ilə bağlı beynəlxalq tədbirlər keçirir**

Mart ayında isə BMT-nin İnsan Hüquqları Şurasının 61-ci sessiyası çərçivəsində İsveçrənin Cenevrə şəhərində Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "Hindistan hökumətinin transmilli repressiyalarına qarşı mübarizə: Siqhlərin müqaviməti və BMT" adlı beynəlxalq konfrans keçirilib. Tədbirdə siqh diasporunun Kanada, Böyük Britaniya, Avstraliya və ABŞ-dakı nüfuzlu nümayəndələri, Hindistan hökumətinin repressiv, irqçilik və təqib siyasətinin birbaşa qurbanı olan şəxslər iştirak ediblər. Konfransda Hindistan hökumətinin digər etnik icmalara qarşı həyata keçirdiyi təhdidlər və repressiv siyasət nəticəsində ölkəni tərk etmək məcburiyyətində qalan, hazırda xarici ölkələrdə yaşayan etnik icmaların nümayəndələrinin - siqh fəallarının, diaspor təşkilatlarının rəhbər şəxslərinin, eləcə də onların ailə üzvlərinin Hindistan hakimiyyət orqanları tərəfindən son dövrlərdə artan hücumlara və terror təhdidlərinə məruz qalmaları faktları ətrafında müzakirələr aparılıb. Təşkil edilmiş hücumların fundamental azadlıqlar və insan hüquqları baxımından yaratdığı ciddi risklər, diaspor təşkilatlarına qarşı yönəlmiş transsərhəd təzyiqlər və təhdidlər ətrafında fikir mübadiləsi baş tutub.

Bu xüsusda beynəlxalq təşkilatların diqqətinin sözügedən məsələlərə yönəldilməsinin zəruriliyi, Hindistan hökumətinin ölkə daxilində və xaricində etnik azlıqlara qarşı repressiv siyasətinin BMT və onun müvafiq qurumlarının gündəliyinə çıxarılması imkanları, xüsusilə İnsan Hüquqları Şurası çərçivəsində mövcud prosedur və mexanizmlərin daha effektiv şəkildə tətbiqi, eləcə də BMT-nin transsərhəd, etnik azlıqlar və onların hüquqları üzrə ixtisaslaşmış məruzəçiləri (reparteurs) tərəfindən Hindistan hökumətinin siqh icmasına qarşı həyata keçirdiyi qanunsuz təqib və təzyiq hallarının sistemli şəkildə sənədləşdirilməsi, eləcə də bu kimi halların qarşısının alınması məqsədilə qlobal səviyyədə hesabatlılıq və monitorinq mexanizmlərinin daha da gücləndirilməsinin vacibliyi, Hindistan hökumətinin beynəlxalq müstəvidə məsuliyyəti konfransın əsas müzakirə mövzusu olub.

***N.BAYRAMLI***

Mübariz ABDULLAYEV

# Tarixin daş möhürləri...

## Qərbi Azərbaycanda xalqımızın yaratdığı abidələrə münasibətdə mədəni irs soyqırımı həyata keçirilib

Tarix boyunca xalqımız çətin yol keçib, zaman-zaman ədalətsizliklərlə üzləşib. Belə haqsızlıqlardan biri də ayrı-ayrı güc mərkəzlərinin məkrli ssenariləri əsasında tarixi ərazilərimizin ermənilərə verilməsidir. Faciələrimiz yalnız torpaqlarımızın itirilməsi, sərhədlərimizin daralması ilə bitməyib. Qərbi Azərbaycanda məskunlaşan ermənilər həm də burada xalqımızın əsrlər boyunca yaratdığı abidələrə münasibətdə, sözün əsl mənasında, mədəni irs soyqırımı həyata keçiriblər.

Fəqət, abidələrin də yaddaşı var. Tarixin daş möhürləri sayılan abidələr izləri ermənilərə deyil, azərbaycanlılara doğru aparır...



**Tarixi ədalətsizlik...**

Hər şey ötən yüz illiyin əvvəllərində imperiya mərkəzlərinin əli ilə tarixi ədalətsizliyə yol verilməsindən, yəni Qərbi Azərbaycana ermənilərin köçürülməsindən və burada Ermənistan adlı dövlətin yaradılmasından başlayıb. Məlumdur ki, ermənilər İrəvanı “Erabuni” kimi qələmə verməklə 1968-ci ildə onun 2750 illiyini, 2018-ci ildə isə 2800 illiyini qeyd ediblər. Lakin bu, saxta tarixdir. 2018-ci ildə İrəvanın ermənilərə peşkəş edilməsinin yüz ili tamam olub.

Bəli, ilk mərhələdə İrəvan ermənilərə verilib. İmperialist güc mərkəzlərinin planlarında türk coğrafiyasının pozulması hədəf kimi qarşıya qoyulmuşdu. Beləliklə, ermənilər maraqlı dairələrin maşası rolunu icra edəcəkdilər. Onların yerləşdirilməsi və erməni dövlətinin qurulması məqsədilə tarixən azərbaycanlılar yaşamış İrəvan şəhəri və ətraf ərazilər müəyyənləşdirilmişdi. 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyəti güzəştə gedərək İrəvanın ermənilərə verilməsi planı ilə razılaşdı. Bu cinayətə bərabər bağışlanmaz bir günah idi. Çünki bundan ruhlanan ermənilər və onların havadarları xalqımızdan yeni-yeni torpaqlar qoparmaq həvəsinə düşdülər. 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə digər tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər.

Bütövlükdə, xalqımıza qarşı tarixi ədalətsizlik bir neçə mərhələdə reallaşdırılıb. XIX əsrin əvvəllərində imzalanmış “Gülüstan” və “Türkmənçay” müqavilələrindən sonra ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi ilə azərbaycanlıların deportasiya siyasətinin əsası qoyulub. Xüsusilə də 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə xalqımıza qarşı mərhələli şəkildə deportasiya və soyqırımları həyata keçirilib.

Soydaşlarımızın sonuncu dəfə deportasiyaya məruz qaldıqları 1988-1991-ci illərdə Ermənistanda 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdı, 90-a yaxın kənddə, eləcə də böyük şəhərlərdə azərbaycanlılar əksəriyyət təşkil edirdilər. Həmin kəndlərdə və şəhərlərdə yaşayan soydaşlarımız 3 il ərzində Ermənistandan zorla çıxarılıb, soyqırımı və işgəncələrə məruz qalıblar.

**Tarixi abidələr - Qərbi Azərbaycanda milli kimliyimizin nişanələri**

Azərbaycan xalqı yaradıcı xalqdır. Saxta tarix yazmaqla “qədim” xalq olduqları barədə miflər uyduran ermənilərdən fərqli olaraq bizim tariximiz daş abidələrdə yazılıb. Bu, Qərbi Azərbaycanda da belədir. Keçmişdə nəşr olunan kitablarda, xəritələrdə indiki Ermənistan ərazisindəki yaşayış məntəqələrinin, çayların, göllərin, dağların adları istisnasız olaraq Azərbaycan mənşəlidir. Sonradan bu adlar məqsədli şəkildə erməniləşdirilib və onlara qondarma adlar verilib.

Qərbi Azərbaycan ərazisində xalqımız milli-dini kimliyinin nişanəsi olaraq çoxlu sayda daş abidələr yaradıblar. Bu abidələrin bir qismi xristian udi keçmişimizə aid olsa da, böyük qismi İslam dininin qəbul edilməsindən sonrakı dövrdə yaradılıb. Soydaşlarımız harada yaşamalarından asılı olmayaraq İslam dininə etiqad göstərməklə yanaşı, bu mədəniyyətin zənginləşməsinə də öz töhfələrini veriblər. Yuxarıda qeyd etdiyimiz deportasiyalardan əvvəlki mərhələlərdə indiki Ermənistan ərazisində də İslam dini ilə bağlı böyük icma mövcud olub və bu icma tərəfindən müxtəlif ünvanlarda çoxlu sayda ibadət ocaqları, məscidlər yaradılıb. Arxiv sənədlərinə əsasən 1888-ci ildə İrəvan quberniyasında 210 məscid, 1902-ci ilin məlumatına əsasən isə 310 məscid olub. 1889-cu ilədək İrəvan və İrəvan quberniyasında müsəlmanlara xidmət göstərən 49 ruhani dairəsi mövcud olub. 1891-ci ildə İrəvan şəhərində 8 məscid, 11 dairə olub, qəzalarda isə məscidlərin sayı 37-yə çatmışdı.

Xüsusilə ermənilər tərəfindən tamamilə yer üzündən silinən İrəvan qalası 60-dək bürcü ilə arxitektura baxımından Şərqin, türk dünyasının mühüm mədəniyyət mərkəzlərindən biri kimi tanınır. Qaladakı Sərdar sarayı, Sərdar məscidi, XVII əsrin nadir memarlıq abidəsi olan Göy məscid səyyahları həmişə heyran qoymuşdur. Qalada daha yeddi məscid fəaliyyət göstərib. İrəvan qalasından söz açan bir çox səyyahların işlətdikləri Şiləçi, Sabunçu, Boyaqçı, Toxmaq, Təpəbaşı, Dəmirbulaq, Bağçalar kimi toponimlər şəhərin məhz azərbaycanlı mirasına sahiblik etdiyini təsdiqləyən önəmli göstəricidir.

**900-dən çox tarix və mədəniyyət abidəsi vəhşicəsinə dağıdılıb**

Ermənistanda azərbaycanlılara məxsus tarixi izlərin məqsədli şəkildə yox edilməsi dövlət səviyyəsində sistemli şəkildə həyata keçirilən bir siyasətdir. “Deportasiya” sözü yalnız soydaşlarımızın qurub-yaratdıqları evlərdən çıxarılması və köçürülməsi anlamında qəbul edilməməlidir. Tarixi ərazilərimizdən soydaşlarımızın zorla çıxarılması ilə paralel şəkildə, həm də tarixi-mədəni irsimizə qəsd edilib. İrəvandakı Dəmirbulaq məscidi yer üzündən silinib, Göy məscid isə orijinal xüsusiyyətlərinin dəyişdirilməsi məqsədilə digər mənşəli abidə kimi “yenidən təmir edilib”. Dağıdılmış abidələr arasında XVIII əsrin ikinci yarısında Qara Seyid tərəfindən



İrəvanda tikilmiş Hacı Novruzəli bəy məscidi də var. Həmçinin İrəvanın Sərdar məscidi də sistemli dağıntıya məruz qalıb və 2014-cü ildə tamamilə məhv edilib.

Siyahı kifayət qədər uzundur. Bütövlükdə 300-dən artıq məscid, ocaq, ziyarətgah, 500-dən artıq qəbiristanlıq yer üzündən silinib. Ermənistanın siyasi rəhbərliyinin göstərişi ilə Zəngəzur vilayətinin Qafan, Mehri, Xot, Şinuayr, Əlidərə inzibati yaşayış məntəqələrində viran qoyulmuş 900-dən çox tarix və mədəniyyət abidəsinin xarabalıqları bu gün də qalmaqdadır.

**Unutsaq, unudularıq - mədəni irs soyqırımlarının sənədləşdirilməsi**

Tarixi yurd yerlərimizin, oradakı mədəni irs nümunələrinin ölməz ruhu həmişə bizləri özünə çəkir. Biz tariximizi, yurd yerlərimizi, milli-dini kimliyimizin nişanələri olan mədəni irs nümunələrimizi unutmuruq. Çünki unutsaq, unudularıq. Hazırda Prezident İlham Əliyevin tövsiyəsi ilə Qərbi Azərbaycan ərazisində azərbaycanlıların tarixən yaratdığı dövlətçilik ənənələri, maddi və qeyri-maddi mədəni irsi, məruz qaldıqları tarixi ədalətsizliklər və cinayətlər, itirdikləri maddi-mənəvi sərvətlər haqqında davamlı tədqiqatlar aparılmaqdadır. Bu istiqamətdə müasir elmi yanaşmalara uyğun yeni fundamental araşdırma - “Qərbi Azərbaycan İrsi” tədqiqatlar seriyası nəşr edilməyə başlanılıb. “Qərbi Azərbaycan İrsi: Ermənistanda azərbaycanlıların maddi-mədəni irsinin - qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar” kitabının I cildi seriyanın ilk nəşridir və Azərbaycan, ingilis, rus dillərində nəfis tərtibatla çap edilib. İlk nəşrin təqdimatı 24 iyun 2025-ci ildə baş tutub.

Seriyanın 5 hesabatdan ibarət olması nəzərdə tutulub. I, II, III hesabatlarda Qərbi Azərbaycanda Ermənistan dövləti tərəfindən məqsədli şəkildə dağıdılan azərbaycanlılara məxsus qəbiristanlıqlar, IV hesabatda məscidlər, V hesabatda isə pirlər və türbələr öz əksini tapacaq.

Kitabın I cildində 1991-ci ilə qədər Qərbi Azərbaycan - indiki Ermənistan ərazisində mövcud olmuş, indi isə yalnız xarabalıqları qalmış 700-dən çox azərbaycanlı qəbiristanlığının 201-nin əvvəlki və indiki vəziyyətindən bəhs edilir.

Tədqiqat zamanı 1890-1991-ci illərdə Rusiya imperiyası və daha sonra Sovet İttifaqının Baş Qərargahı tərəfindən tərtib və nəşr edilən, uzun müddət məxfilik statusunda saxlanılan müxtəlif ölçülü 250-dən çox topoqrafik xəritədən, ötən əsrə və müasir dövrə aid Amerika Birləşmiş Ştatlarının kəşfiyyat peyklərinin təsvirlərindən, Rusiya, Türkiyə, Gürcüstan və Azərbaycan arxivlərində saxlanılan sənədlərdən, Almaniya, ABŞ, Rusiya kitabxanalarındakı mənbələrdən, foto-video materiallardan, Ermənistandan deportasiya edilmiş azərbaycanlıların xatirələrindən istifadə edilib.

# Saxta təşkilatın saxta iddiaları...

## “Amnesty İnternational”ın illik hesabatında ölkəmizlə bağlı məqamlar qərəzlidir

Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan dünya miqyasında dayanıqlı inkişafa və möhkəm ictimai-siyasi sabitliyə malik olan güclü, nüfuzlu ölkə kimi tanınır. Şübhəsiz ki, ölkəmizin dinamik tərəqqisinin və ictimai-siyasi sabitliyin əsasında müvəffəqiyyətlə həyata keçirilən praqmatik daxili və xarici siyasət kursu dayanır. Milli inkişaf modelinin uğurla tətbiq edilməsi və hədəflənən nəticələrin əldə olunması, sosial-iqtisadi və institusional islahatların uğurla həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin qorunması, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməsi və digər nailiyyətlər müasir müstəqil Azərbaycanın gerçəkliklərini təşkil edir.

### Təşkilat “ənənəsinə” sadiqdir

Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Cənubi Qafqazda yeni mənzərə yaranıb. Bu, dövlətimizin və onun lideri, Prezident İlham Əliyevin yaratdığı yeni reallıqlardan ibarətdir. Torpaqlarını işğaldan azad etdikdən sonra Azərbaycanın nəinki regionda, bütövlükdə, beynəlxalq müstəvidə mövqeləri əhəmiyyətli dərəcədə güclənib. Lakin bəzi qərəzli dairələr Azərbaycanın uğurlarını, xüsusilə qələbəsini həzm edə bilmirlər. Bunun üçün də ölkəmizin müsbət beynəlxalq imicinə xələl gətirmək üçün “qara piar” kampaniyası aparır, reallıqlara uyğun olmayan məlumatlar yayırlar. “Amnesty İnternational” təşkilatı da məhz belələrindəndir.




Qeyd edək ki, aprelin 21-də bu təşkilat açıqladığı illik hesabatda “ənənəsinə” sadiq qalaraq Azərbaycana qarşı əsassız və qərəzli iddialara yer verib. Hesabatda iddia olunur ki, guya Azərbaycanda yüzlərlə insan siyasi motivlərlə həbs edilib. Hesabatda uydurulur ki, müstəqil QHT-lər və ictimai qruplar ciddi məhdudiyyətlərlə üzləşir, dinc etiraz aksiyaları dağıdılır. “İşgəncələr, pis rəftar və günahkarların cəzasızlığı geniş yayılmış hal olaraq qalır. Qadınlar və LGBT fərdləri diskriminasiya, cinsi zorakılıq və təzyiqlərlə üzləşməyə davam edir”, - deyə hesabatda saxta ittihamlar irəli sürülür.

“Amnesty İnternational” özünün qondarma hesabatında Azərbaycanın ABŞ və Avropa İttifaqı ilə münasibətlərinin genişləndirilməsinə də qısqıla yanaşıb. Təşkilatın Qərbin ölkəmizlə əməkdaşlığını genişləndirməsini həzm edə bilmir. Əslində isə ABŞ və Aİ kimi beynəlxalq güclərin Azərbaycana münasibəti “Amnesty İnternational”ın iddialarına tutarlı cavabdır.

### “İkiüzlü” təşkilat...

Bundan əlavə, təşkilat iddia edir ki, 2022-ci ildə “Media haqqında” qanuna edilən dəyişikliklər hakimiyyətə müstəqil saytları bloklamaq və xarici media ofislərini qanunsuz elan etmək səlahiyyəti verib. “Sənəd”də Azərbaycan həbsxanalarındakı saxlama şəraiti də əsassız olaraq pislənilir. Hesabatda, həmçinin iddia olunur ki, Azərbaycan hakimiyyəti “Dağlıq Qarabağ” münaqişəsindən zərər çəkmiş insanların müdafiəsini və məsuliyyət tədbirlərini “təmin edə bilməyib”. Bununla da, sözügedən təşkilat Azərbaycanın suverenliyinə hörmətsizliyini bir daha nümayiş etdirir. Çünki ölkəmizdə “Dağlıq Qarabağ” adlı inzibati ərazi vahidi yoxdur.

Məlumdur ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olunana qədər bu təşkilat ölkəmizdə demokratiya və insan haqları ilə bağlı saxta məlumatlar yayırdı. Lakin hər dəfə qurumun cavabı arqumentlər əsasında verilirdi. Onun diqqətinə çatdırılırdı ki, Azərbaycan bütün azadlıqların təmin edildiyi müasir, demokratik ölkədir. İnkişafın milli modelini formalaşdıran Azərbaycanda iqtisadi və siyasi islahatlar paralel şəkildə aparılır və bir-birini tamamlayır. Azad, demokratik cəmiyyət quruculuğuna nail olunması ölkəmizin müstəqillik illərində əldə etdiyi ən mühüm uğurlardan biridir.

### “Amnesty İnternational” erməni lobbisinin girovuna çevrilib

Nəzərə alaq ki, Ermənistanın 30 illik işğalı dövründə “Amnesty İnternational” bu işğal siyasətinə görə rəsmi İrəvanı heç vaxt tənqid etmədi, yüzminlərlə azərbaycanlının doğma yurdlarından didərgin düşməsini səssizliklə qarşıladı. Azərbaycan öz torpaqlarını işğaldan azad etməyə başladıqda isə təşkilat yenidən “fəallaşaraq” Ermənistanın vəkili rolunda çıxış etdi. Belə ki, “Amnesty İnternational” Vətən müharibəsi zamanı, eləcə də Qarabağda keçirilən antiterror tədbirlərindən sonra bir neçə dəfə ölkəmizə qarşı bəyanatlar səsləndirib. Bu il fevralın 17-də isə bu təşkilat Azərbaycan məhkəməsinin müharibə cinayətləri törətmiş erməniəsilli şəxslər barədə çıxardığı hökm barədə tamamilə əsassız, böhtan xarakterli açıqlama yaymışdı. Əlbəttə, sözügedən açıqlama reallığı əks etdirmir.

Hazırkı hesabatda da “Amnesty İnternational” erməniəsilli cinayətkarların “vəkili” rolunda çıxış etməyə çalışır. Həmin dairələr nəzərə almalıdır ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini öz gücü ilə, heç bir yerdən yardım almadan bərpa edib. Eyni zamanda, müharibə cinayətkarlarını həbs edərək ədalət mühakiməsinə çıxardı. Məqsəd isə ədalətin və beynəlxalq hüququn təmin edilməsi idi. Dövlətimiz buna da nail oldu. Belə ki, Qarabağda antiterror tədbirlərindən sonra separatçı rejimin rəhbərliyində olmuş ermənilər, torpaqlarımızın işğalında iştirak edən yüksək rütbəli hərbçilər həbs olunaraq ədalət mühakiməsinə çıxarıldılar. Məhkəmə tərəfindən onlara hökm oxunub. Sonuncu hökm isə fevralın 17-də Ruben Vardanyan haqqında verilib.

Cinayətkarlar həm həbs olunanda, həm də məhkəmələri keçiriləndə müxtəlif qurumlar, o cümlədən Avropa Parlamenti, AŞPA, eləcə də müxtəlif ölkələrin parlamentlərində erməni lobbisinin təsiri ilə bir sıra “sənədlər” qəbul edilib. Lakin bütün bunlar dövlətimizin qətiyyətli mövqeyinə heç bir təsir göstərmək iqtidarında olmadı. Bu baxımdan, “Amnesty İnternational”ın indiki hesabatındakı qərəz kağız parçasından başqa bir şey deyil.

Nardar BAYRAMLI

# Dövlət büdcəsinin gəlirləri artıb

## Büdcədə 1 milyard 781,5 milyon manat məbləğində profisit yaranıb

2026-cı ilin birinci rübündə ölkəmizdə qeyri-neft mənbələri əsasında iqtisadiyyatda yaradılan əlavə dəyər büdcədə bütün fiskal yığımlarda artımın təmin edilməsinə səbəb olub. İlk 3 ay ərzində fiskal yığımların artımında da yüksək dinamika qeydə alınıb. Bu dövrdə dövlət büdcəsinin gəlirləri 9,5 milyard manatı ötüb və büdcənin icrasında müsbət dinamika davam edib. Büdcə gəlirləri 9,1 milyard manat proqnoza qarşı 9 milyard 598,6 milyon manat və yaxud 458,5 milyon manat (5 faiz) çox icra edilib. Bu, cari ilin dövlət büdcəsinin illik proqnozlaşdırılan gəlirlərinin 24,9 faizinə bərabərdir.

Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert nəzərə alınmadan dövlət büdcəsinin gəlirləri 7,7 faiz çox icra edilməklə 6 milyard 388,6 milyon manat təşkil edib.

**Qeyri-neft sektoru üzrə büdcə daxilolmalarının payı 57,7 faizə çatıb**

Dövlət büdcəsinin gəlirlərinin 4 milyard 702 milyon manatı və ya 49 faizi vergi orqanlarının xətti ilə daxilolmaların, 3 milyard 210 milyon manatı və ya 33,4 faizi Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin, 1 milyard 410 milyon manatı və ya 14,7 faizi gömrük orqanlarının xətti ilə daxilolmaların, 163,5 milyon manatı və ya 1,7 faizi dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmaların, 13,8 milyon manatı və ya 0,1 faizi dövlət əmlakının icarəyə verilməsindən daxilolmaların, 99,2 milyon manatı və ya 1,1 faizi sair daxilolmaların payına düşür.

Beləliklə, dövlət büdcəsinin gəlirlərində proqnoza nisbətən vergi orqanlarının xətti ilə 472,5 milyon manat və ya 11,2 faiz, gömrük orqanlarının xətti ilə 5,1 milyon manat və ya 0,4 faiz çox vəsait daxil olub. Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert proqnozlaşdırılan səviyyədə qalıb.

Büdcədə əsas fiskal mənbə kimi qeyri-neft-qaz sektoru üzrə gəlirlərdə xüsusi artım müşayiət edilib. Həmin sahə üzrə daxilolmalar cəmi büdcə daxilolmalarının 57,7 faizini təşkil edib və nominal həcm baxımından 5 milyard 533,7 milyon manat təşkil edib. Qeyri-neft gəlirlərində isə vergi orqanlarının xətti ilə daxilolmalar 3 milyard 847,1 milyon manata (69,5 faiz) bərabər olub. Digər qeyri-neft fiskal yığımlarda gömrük orqanlarının payı 1,4 milyard manatdan (25,5 faiz) bir qədər çoxdur. Qalan 5 faizi isə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar və sair gəlirlər təşkil edib.










**Büdcə xərclərinin 54,1 faizi sosialyönümlü xərclər təşkil edib**

Cari ilin birinci rübündə dövlət büdcəsinin xərcləri isə tam şəkildə icra olunub. Belə ki, büdcə vəsaiti hesabına əsas dövlət vəzifələrinin yerinə yetirilməsi üçün maliyyələşmələr, o cümlədən əməkhaqları, müavinətlər, pensiyalar, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası, dövlət proqramları və məqsədli tədbirlərin, dövlət borcu üzrə öhdəliklərin və digər zəruri xərclərin maliyyələşdirilməsi büdcə təşkilatlarının və büdcədən maliyyə yardımı və ya digər qaydada vəsait alan təşkilatların dövlət xəzinədarlığı orqanlarına təqdim etdikləri xərc sifarişləri əsasında tam və vaxtında təmin edilib. Həmin istiqamətlər üzrə maliyyələşməyə 7 milyard 817,1 milyon manat yönəldilib. Büdcə xərclərinin 5 milyard 762,5 milyon manatı və ya 73,7 faizi cari xərclərə, 1 milyard 530,4 milyon manatı və ya 19,6 faizi əsaslı xərclərə, 524,2 milyon manatı və ya 6,7 faizi dövlət borcuna xidmətlə bağlı xərclərə sərf edilib.

Beləliklə, 2026-cı ilin birinci rübündə dövlət büdcəsinin xərcləri təmin edildikdən sonra 1 milyard 781,5 milyon manat profisit yaranıb.

Büdcədə xərclərin 54,1 faizi və ya 4 milyard 227,8 milyon manatı sosialyönlü xərclər (büdcə xərclərinin əməyin ödənişi fondu, qida məhsullarının alınması, təqaüd və sosial müavinətlər, dərman, sarğı ləvazimatları və materiallarının alınması, icbari tibbi sığorta üzrə xərclər) təşkil edib. Funksional təsnifata uyğun olaraq sosial müdafiə və sosial təminat xərcləri 1 milyard 315,8 milyon manat, kənd təsərrüfatı xərcləri 308,7 milyon manat, ümumi dövlət xidmətləri xərcləri 1 milyard 206,8 milyon manat, təhsil xərcləri 1 milyard 013,7 milyon manat, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq bölməsi üzrə xərclər 654,8 milyon manat, səhiyyə xərcləri 366,6 milyon manat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərcləri 105 milyon manat olub. İqtisadi fəaliyyət xərcləri isə 1 milyard 231,4 milyon manata çatıb.

**Azad ərazilərin yenidən qurulmasına 386,2 milyon manat xərclənib**

Büdcədən ilk 3 ayda müdafiə və milli təhlükəsizlik sahəsinə 1 milyard 288,5 milyon manat xərclənib. İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası məqsədilə illik nəzərdə tutulmuş vəsaitin 3 ayda 11 faizi həcmində və yaxud 386,2 milyon manat vəsaitin istifadəsi təmin olunub. Həmin vəsaitin 355,2 milyon manatı infrastruktur təyinatlı layihələrin (avtomobil yolları infrastrukturunun layihələndirilməsi, tikintisi, yenidən qurulması üçün 185 milyon manat, yeni yaşayış komplekslərinin layihələndirilməsi və tikintisi işlərinin aparılması üçün 142,2 milyon manat, turizm infrastrukturunun yaradılması və digər tədbirlərin icrası üçün 28 milyon manat), 10,7 milyon manatı səhiyyə və mədəniyyət yönümlü sosial təyinatlı layihələrin maliyyələşdirilməsinə, 20,3 milyon manatı isə ərazilərin minalardan təmizlənməsi üzrə xərclərə yönəldilib. Bundan başqa dövlət əsaslı vəsait qoyuluşuna isə 365,4 milyon manat sərf olunub ki, həmin maliyyənin də bir hissəsi azad əraziləri əhatə edir.

**Xarici borc 4 milyard 689,3 milyon dollara düşüb**

2026-cı ilin dövlət büdcəsində dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı 2 milyard 457,6 milyon manat məbləğində xərclər nəzərdə tutulub. Qeyd edilən dövrdə dövlət büdcəsinin dövlət borcuna xidmət xərclərindən daxili borc üzrə 132,5 milyon manat (faiz borcu üzrə), xarici borc üzrə 391,7 milyon manat olmaqla (əsas borc üzrə 269,5 milyon manat, faiz borcu üzrə 122,2 milyon manat), ümumilikdə 524,2 milyon manatın ödənilməsi təmin edilib.

Xarici borclanma hesabına icrası davam etdirilən layihələr çərçivəsində vəsaitin istifadəsi üzrə təqdim edilmiş məlumatlar və xarici dövlət borcu üzrə əsas borc ödənişləri nəzərə alınmaqla, 2026-cı il 1 aprel tarixinə xarici dövlət borcunun həcmi azalaraq 4 milyard 689,3 milyon dollar təşkil edib. Beləliklə, 2026-cı il 1 aprel tarixinə xarici dövlət borcu ÜDM-in 6,1 faizinə bərabər olub.

**İcmal büdcədə kəsir yaranıb**

2026-cı ilin yanvar-mart aylarında icmal büdcənin gəlirləri 8 milyard 852,8 milyon manat, xərcləri isə 9 milyard 060,8 milyon manat səviyyəsində icra olunub. İcmal büdcədə 208 milyon manat büdcə kəsiri yaranıb.

İcmal büdcənin tərkib hissəsi olan Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirləri 2 milyard 131,8 milyon manat, xərcləri 2 milyard 052,9 milyon manat, İşsizlikdən Sığorta Fondunun büdcəsinin gəlirləri 58,9 milyon manat, xərcləri 38,4 milyon manat, İcbari Tibbi Sığorta Fondunun büdcəsinin gəlirləri 569,3 milyon manat, xərcləri 454,6 milyon manat məbləğində icra olunub. Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlirləri 104,4 milyon manat, xərcləri 98,8 milyon manat təşkil edib.

*E.CƏFƏRLİ*

# “Rəqəmsal pul” və qızıl bazarında yenidən canlanma

## “Bitcoin” kəskin ucuzlaşmadan sonra rekord dəyər qazanmaqdadır

İran və ABŞ arasında baş verən münaqişə fonunda fevral ayının sonlarından qiymətində kəskin eniş nümayiş etdirən “Bitcoin” aprelin əvvəlində atəşkəs razılaşmasından sonra yenidən dəyər qazanmağa başladı. Mart ayında 65 min dollara qədər ucuzlaşan bu rəqəmsal valyuta son 10 gündə tədrici artımlarla 72 min dollara qədər yüksəliş əldə etmişdi. Aprelin 20-də isə dünyanın ən böyük kriptovalyutası daha da artım nümayiş etdirərək 78 min dollara yaxınlaşıb. Belə ki, “CoinMarketCap” platformasında “Bitcoin”in qiyməti cəmi bir neçə saatda 77 min 951 dollarda qərarlaşıb.

Qlobal bazar tədqiqatçıları bazarda müşahidə olunan artımı ABŞ-İran razılaşması fonunda bazarlarda risk ehtimalının azalması və investorların inamının artması ilə əlaqələndirirlər. Bu amillər son 10 gündə qlobal səhmdarların risk təhdini azaltmaqla, investorların kriptovalyutalara marağının artması ilə müşahidə olunur və nəticədə “Bitcoin” lider virtual pul kimi bazarda yenidən dominantlığını qorumaqdadır.

### İnvestorlar nikbindir: “Bitcoin” 140 min dollara yüksələcək

Qeyd edək ki, “Bitcoin” qlobal maliyyə sektorunda qızıldan sonra ən çox birja dəyəri nümayiş etdirən və investorların marağında olan aktivdir. Son 2 ildə “Bitcoin”in qiyməti 3,5 dəfədən çox bahalaşaraq yanvarın sonlarında 105 min dollara qədər yüksəlib, dövriyyədəki ümumi dəyəri isə 2 trilyon dolları ötüb.

“Bitcoin”in dəyəri bir neçə amillə bağlıdır, burada real bazar prosesləri ilə yanaşı, spekulyativ simulyasiyalar da xüsusi rol oynayır. İlk növbədə, bu rəqəmsal valyutanın dəyərinə təsir edən mühüm amillərdən biri dolların dəyərindəki dəyişikliklərdir. Əgər dolların qlobal dəyəri azalarsa, “Bitcoin” bir qədər də bahalaşır. Bu nöqteyi-nəzərdən ABŞ-ın Federal Ehtiyatlar Sisteminin (FES) yürütdüyü siyasət kriptovalyutanın dəyərinə təsir edir.

Tanınmış bazar tədqiqat institutu - “Bitget Research” şirkətinin aparıcı analitiki Rayan Linin fikrincə, “Bitcoin”in qlobal münaqişələr səbəbindən ucuzlaşması müvəqqəti xarakter daşıyır. Ekspert bildirib ki, indi əsas diqqət ABŞ-da pul siyasətinin gələcəyinə və FES-in əsas faiz dərəcəsini artırmasına yönəlib. Əgər investorlar növbəti 6 ay ərzində pul siyasətinin yumşaldılması siqnalı alsalar, kapitalın riskli aktivlərə qayıdacağını gözləməyə dəyər. Belə ki, qlobal maliyyə bazarlarında qeyri-



müəyyənliklərin aradan qalxması fonunda investorların yeni realizasiyası baş verə bilər ki, bu da “Bitcoin”in 110 min dollara qədər bahalaşmasına gətirib çıxaracaq. Ardınca qiymətli kriptopul 2026-cı ilin ikinci rübündə daha 10 min dəyər qazanmaqla birjalarda 120 min-125 min dollar arasında satıla bilər. 2026-cı ilin ikinci yarısında isə “Bitcoin”in gözlənilməz rekordu təzələyə, 140 min dollara çatması gözlənilir.

### Qızılın qiyməti dəyişsə də...

Qlobal geosiyasi amillər və ABŞ-ın birinci rübdə nümayiş etdiridiyi makroiqtisadi göstəricilər öz siqnallarını digər bazar alətlərinə, o cümlədən ən dəyərli maliyyə aktivi olan qızıla da ötürməkdədir. Sarı metalın unsiyası son bir ayda müxtəlif fraqmentasiyalar üzrə dəyişkənlik əks etdirir. Qızıl gah bahalaşır, gah da ucuzlaşır. Belə ki, 2 gün əvvəl əmtəə bazarlarında qızılın bir troya unsiyası üzrə fyuçerslərin dəyəri artaraq 4879-a yüksəlsə də, aprelin 20-də Nyu-Yorkun “COMEX” əmtəə birjasında 70,3 dollar azalaraq 4809,3 dollar təşkil edib.

Bazar tədqiqatçıları qızılın və digər aktivlərin dəyərindəki ucuzlaşmanı Yaxın Şərqdəki münaqişə riskləri ilə yanaşı, digər geoiqtisadi pozulmalardan da qaynaqlandığını istisna etmirlər. Belə ki, ABŞ-Çin münasibətlərində ticarət və texnologiya sahəsində davam edən gərginlik qlobal iqtisadi artım perspektivlərinə dair narahatlıqları artırdığından investorların yeni sərmayə həvəsi məhdudlaşıb. Bu gərginlik xüsusilə Asiya bazarlarında və texnologiya sektorunda, ticarətdə qırılmalara səbəb olub. Eləcə də ABŞ və Avropa arasında siyasi gərginliyin artması investorların risk qiymətləndirmələrini yenidən sərtləşdirib.

### “Wells Fargo” - sarı metalın 8400 dollara çatması istisna deyil

Ancaq buna baxmayaraq, “Bitcoin” kimi qızılın da qlobal investisiya bazarında dəyərli alət kimi qiymətinin artacağına dair ehtimallar daha çoxdur. ABŞ-ın ən böyük maliyyə nəhənglərindən biri olan “Wells Fargo”nun ekspertlərinin qənaətinə görə, qızıl qiymətlərində hansısa qısa dövrdə ucuzlaşma müvəqqətidir, bu metalın dəyəri ilin sonunda və növbəti dövrlərdə artmağa doğru istiqamətlənəcək. Hətta qızılın bir unsiyasının 8000-8400 dollar aralığınadək yüksəlməsi istisna edilmir. Ekspertlər öz ehtimallarını 3 arqumentin üzərində əsaslandırırlar. Birincisi, təklif çatışmazlığı və hasilat problemləridir. Belə ki, yeni qızıl yataqlarının tapılması prosesi rekord dərəcədə azalır və mövcud olan qızıl mədənlərində isə xərcləri artır, eləcə də yerin altından qızıl çıxarmaq getdikcə çətinləşir. Bazar tələbi artarkən, təklifin sabit qalması qiyməti yuxarı çəkir. İkinci amil, əksər ölkələrin Mərkəzi banklarının və suveren fondlarının kəskin qızıl yığımlarıdır. Xüsusilə inkişaf etməkdə olan ölkələrin bankları (Çin, Hindistan, Türkiyə və s.) dollar asılılığını azaltmaq üçün kütləvi şəkildə qızıl yığırlar. Bu, bazarda daimi və güclü bir alıcı bazası yaradır. Üçüncü amil isə qlobal borc və inflyasiya qorxusudur. Dünyada dövlət borclarının idarəolunmaz həddə çatması investorları kağız pullara qarşı ehtiyatlı olmağa və dayanıqlı dəyər aləti olan qızıla yönəlməyə məcbur edir.

Məhz bu amillər növbəti illərdə qızılın orta illik gəlirliliyinin hər il 20 faiz artacağına dair proqnozları artırmaqdadır.

*E.CƏFƏRLİ*

# İyul sammitinə hazırlıq...

## Rutte Türkiyəyə gəldi

Hazırda dünya siyasətinin ən çox müzakirə olunan predmetlərindən biri NATO-dur. ABŞ-ın son illərdə NATO xərcləri ilə bağlı narazılıqları, eləcə də, alyansın Ukrayna və Yaxın Şərq müharibələri ilə bağlı mövqeyi birmənalı qarşılanmadı. Xüsusilə Avropa dövlətlərinin NATO ilə bağlı xərcləri ÜDM-in 5 faizi dərəcəsinə yaxınlaşdırılması ilə bağlı öhdəliyi bir sıra ölkələr arasında narazılıq yaradır. Bu məsələlərin əsas müzakirə masası isə iyul ayında Türkiyədə baş tutacaq NATO sammiti olacaq. Yeri gəlmişkən, NATO-nun Baş katibi Mark Rutte bu günlərdə Türkiyədə olub, Zirvə Görüşünə hazırlıq prosesi ilə tanış olub.

**NATO yayda Ankaraya yığılır**

NATO Baş katibi səfər çərçivəsində ASELSAN müəssisələrinə baş çəkib. Müdafiə sənayesində istehsalın sürətləndirilməsinin və innovasiyanın təşviq edilməsinin vacibliyini vurğulayan Rutte bildirib ki, “Bu, NATO üçün ən vacib prioritetlərdən biridir. Bu, həmçinin iyul ayında Ankarada keçiriləcək NATO zirvə toplantısının əsas gündəm maddələrindən biri olacaq”.

Rutte müdafiə sənayesində istehsalın əhəmiyyətini vurğulayaraq bildirib ki, “Türkiyənin bu mövzuda etdiklərindən çox şey öyrənə bilərik. Bu, təhlükəli bir dünyada yaşadığımız üçün vacibdir”. Təhlükəsizlik üçün güclü müdafiə sistemlərinə ehtiyac olduğunu bildirən Rutte deyib: “Burada etdikləriniz Türkiyənin təhlükəsizliyini təmin etməyə kömək edir, həm də Türkiyəni son dərəcə dəyərli müttəfiq kimi görən ölkələrin təhlükəsizliyində əsaslı rol oynayır. Türkiyə müdafiə sənayesində inqilab yaşayıb”.



### Türkiyənin müdafiə sənayesində inqilab dövrü...

Rutte ASELSAN-ın bu inqilabın ön sıralarında olduğuna diqqət çəkib, bu səylərin davam etdirilməsinin və istehsalın daha sürətli artırılmasının vacibliyini vurğulayıb.

### Rutte görüşlər keçirdi...

Səfər çərçivəsində Rutte milli müdafiə naziri Yaşar Gülər və xarici işlər naziri Hakan Fidan ilə də görüşüb. Görüşlərdə ittifaq münasibətlərinin gücləndirilməsinə yönəlmiş mövzular müzakirə olunub - bu kontekstdə, Türkiyənin müdafiə xərclərini NATO-nun 2027-ci il üçün Haaqa hədəflərinə yaxınlaşdırması səylərindən məmnunluq ifadə olunub. Görüşdə həmçinin NATO-nun Çoxmilliətli Korpus təşəbbüsləri müzakirə edilib və Rutte Türkiyənin hava məkanının təhlükəsizliyinin və hava hücumundan müdafiə sistemlərinin NATO-nun İnteqrasiya olunmuş Hava və Raket Müdafiəsi arxitekturası ilə uğurlu işbirliyini vurğulayıb. Ankarada keçiriləcək sammitə hazırlığa gəldikdə isə, sammit çərçivəsində planlaşdırılan “Müdafiə Sənayesi Forumu”nun müttəfiqlər arasında müdafiə sənayesi əməkdaşlığını daha da inkişaf etdirəcəyi bildirilib.

### Hədəf müttəfiq ölkələrlə əməkdaşlığın daha da inkişaf etdirilməsidir

Rutte Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən də qəbul edilib. Görüşdə XİN başçısı Hakan Fidan, milli müdafiə naziri Yaşar Gülər, eləcə də Prezidentin Xarici Siyasət və Təhlükəsizlik üzrə müşaviri, səfir Akif Çağatay Kılıç da iştirak edib. Prezidentin kommunikasiya idarəsinin yaydığı məlumata görə, Ərdoğan-Rutte görüşündə Ankarada keçiriləcək NATO Liderləri Zirvəsinə hazırlıqlar, alyansın gündəliyindəki mövzular, regional və qlobal məsələlər müzakirə olunub. Prezident Ərdoğan bölgədəki qeyri-sabit mühitin NATO müttəfiqləri arasında əməkdaşlığın və həmrəyliyin vacibliyini bir daha əks etdirdiyini, Ankara Zirvəsində müttəfiqlər arasında həmrəyliyi gücləndirəcək və alyansın böhranlara qarşı daimi hazırlığını dəstəkləyəcək qərarların qəbul edilməsini gözlədiklərini bildirib. Ərdoğan Türkiyənin müdafiə sənayesində, xüsusən də hava hücumundan müdafiə sistemlərində potensialın artırıldığını, bu sahədə müttəfiq ölkələrlə əməkdaşlığın daha da inkişaf etdirməyin hədəfləndiyini bildirib. Prezident Ərdoğan Transatlantik əlaqələrin qorunmasının əvəzolunmaz əhəmiyyət kəsb etdiyini, alyansın Avropa hissəsinin üzərinə daha çox məsuliyyət götürməsini gözlədiklərini bildirib. O, əlavə edib ki, Avropa ittifaqının üzvü olmayan Avropa müttəfiqlərinin İttifaqın müdafiə təşəbbüslərindən kənarlaşdırılması məqsədəuyğun olmayacaq. Ərdoğan qeyd edib ki, Türkiyə İrana hücumlarla başlayan prosesdə özünü sülh və diplomatiya tərəfindən göstərib. Həmçinin bildirib ki, Türkiyə Ukrayna-Rusiya münaqişəsinin sülh yolu ilə başa çatması üçün səylərdə iştirak edir və liderlər səviyyəsində danışıqları canlandırmaq və müzakirələrə başlamaq üçün səy göstərir.

### Türkiyə-NATO əlaqələri...

Qeyd edək ki, NATO-Türkiyə münasibətləri Ankaranın 1952-ci ildə NATO üzvü olmaq üçün Koreya müharibəsinə girməsi ilə başlayıb. Sonrakı illərdə bu münasibətlər yüksələn xəttlə inkişaf edib. Ankara NATO-nun ikinci ən böyük ordusudur - 400 mindən çox aktiv xidmət əsgəri ilə ABŞ-dan sonra ikinci yerdədir. Paralel olaraq Türkiyə PUA bazarında müttəfiqlər arasında fərqlənir. Ölkədə 3500-dən çox müdafiə şirkəti fəaliyyət göstərir. Digər 29 Avropa müttəfiq ölkəsində isə bu rəqəm təxminən 2800-ə çatır. Türkiyə istehsalı olan zərbə pilotsuz uçuş aparatlarının (PUA) hərbi uğuru qlobal bazarın diqqətini cəlb edib. Müharibənin gedişatını dəyişdirmək qabiliyyəti ilə tanınan PUA sektoru ilə Türkiyə PUA bazarının təxminən 65 faizinə nəzarət edərək qlobal tanınma qazanıb. Türkiyə 2020-ci ildən 2024-cü ilə qədər müdafiə ixracında qlobal miqyasda 11-ci yeri tutub. 74 illik üzvlüyü dövründə Türkiyə strateji mövqeyi sayəsində, xüsusilə terrorizmə qarşı mübarizədə təhdid və riskləri birbaşa həll edən ilk müttəfiq olaraq NATO-ya mühüm töhfə verib. NATO büdcəsinə töhfəsinə görə isə 32 müttəfiq arasında yeddinci yerdədir və 2030-cu ilə qədər bu rəqəmin 620 milyon avroya çatacağı gözlənilir. 4 iyul 2025-ci ildən etibarən Türkiyə Müttəfiq Cavab Qüvvələri, Suda-Qəza Qüvvələri Komandanlığı rəhbərliyini öz üzərinə götürüb. Türkiyə NATO-nun cənub-şərq cinahındakı mühüm roluna əlavə olaraq, alyansın Qara dənizə, Yaxın Şərqə və Şərqi Aralıq dənizinə çıxışını asanlaşdırır ki, bu da strateji dəyər deməkdir.

### İspaniya da NATO-da qalır...

Bu arada bəzi ölkələrdəki siyasi qüvvələr alyansı tərk etməklə bağlı iddialarından geri çəkilmək istəmirlər. Məsələn, bir müddət öncə İspaniyanın solçu “Podemos” partiyası ölkənin NATO-dan çıxması ilə bağlı referendum keçirilməsi təklifi ilə çıxış etmişdi. İspaniyanın Deputatlar Konqresinin üzvlərinin əksəriyyəti təklifin əleyhinə səs verib. Deputatların böyük çoxluğu alyansda qalmağın tərəfdarı olduğunu nümayiş etdirib. Xarici KİV-lərin məlumatına görə, alyansdan çıxmaq təşəbbüsünə cəmi 20 deputat “hə” deyib. Təklifin əleyhinə isə 300 millət vəkili səs verib. Səsvermə zamanı 25 siyasətçi isə bitərəf qalıb. Qeyd edək ki, səsvermənin nəticələri rəsmi Madridin NATO ilə əməkdaşlığı davam etdirmək strategiyasına sadiqliyini bir daha təsdiqləyib.

**P.İSMAYILOV**

# Vicdan əzab verərmi?

## Fyodor Dostoyevskinin “Cinayət və cəza” romanı haqqında

*əvvəli ötən saylarımızda*

Raskolnikov bacısının Lujinə ərə getməyinin əleyhinə olduğunu açıq bildirir. Dunya göyçək, boy-buxunlu, yaraşıqlı, həm də ötkəm, savadlı, qürurlu qızdır, anasını çox sevir, qardaşından canını əsirgəməz, ancaq özünü doğmalarına qurban verməyə hazırlaşdığını boynuna almaq istəmir, buna görə də qardaşıyla az qalır sözü çəpləşsin. Raskolnikov tək qalmaq istədiyini deyir, anasıyla bacısı onu Razumixinə tapşırıb gedirlər. Dmitrinin ilk baxışdan Dunyaya quşu qonur.

Növbəti gəlişlərində anası ona Lujinin məktubunu göstərir: yeznə gələcək qaynıyla qarşılaşmaq istəmir, üstəlik, anasının göndərdiyi pulları Rodionun bir fahişəyə bağışladığını gözüylə gördüyünü yazır (Lujin də həmin evdə qalır). Söhbətin bu yerində on səkkiz yaşı olsa da, uşağa bənzəyən, solğun üzlü, sısqa vücudlu, sarı saçlı, iri mavi gözlü, sadədil, fədakar Sonya quş damının qapısında peyda olub, Raskolnikovu atasının ehsan süfrəsinə dəvət eləyir.

Pulxeriya anayla Dunya qaldıqları yerə qayıdandan sonra dostlar müstəntiq Porfiri Petroviçin yanına gedirlər ki, sələmçi qarıya verilmiş girovları necə geri ala biləcəklərini öyrənsinlər. Otuz beş yaşa dolmuş töməşərək müstəntiqin gülər üzü, bic, ağıllı, nüfuzlu baxışları var, xalis psixoloqdur, ona kələk gəlmək çətin məsələdir. Porfiri Raskolnikovun bir müddət əvvəl çap olunmuş məqaləsindən söz salır, həmin məqalədə müəllif insanları iki qismə ayırır: adi, bir də qeyri-adi adamlar. Adi adamlar - sürü, kütlə adamlarıdır, onların işi doğub-törəmək, yer üzündə həyatı davam elətdirmək, qanun-qaydaya tabe olmaqdır. Qeyri-adi insanlar - sərkərdələr, hökmdarlar, böyük ideoloqlar isə bəşəriyyətin faydası naminə qanunların, ehkamların, adət-ənənələrin üstündən keçə bilərlər.

Raskolnikov duyur ki, müstəntiq ondan şübhələnir. Evə qayıdıb yatağına uzananda qatmaqarışıq, vahiməli yuxular görür. Svidriqaylovun gəlişi onu bu əzabdan qurtarır. Əlli yaşlarında varlı mülkədar Arkadi İvanoviç Svidriqaylov uca boylu, iri gövdəli, kürən saçlı, soyuq mavi gözlü kişidir. Əyalətdən paytaxta yaxın vaxtlarda gəlib. Təbiətcə arvadbaz, şəhvət düşkünüdür. Arvadı bu yaxınlarda müəmmalı şəkildə ölüb, söz gəzir ki, onun ölümündə ərinin əli var. Qadının sağlığında Dunya ehtiyac üzündən onların evində bir müddət qaravaşlıq eləyib. Svidriqaylovun da Dunyada gözü var.

***

Arkadi İvanoviç Raskolnikova Peterburqa gəlişindən az əvvəl əcələ təhvil verdiyi arvadından, qadının kabus kimi onu izləməsindən danışır, Lujin haqda yaxşı fikirdə olmadığını, Dunyanı ona layiq bilmədiyini deyir. Varlı mülkədar hətta qızın yoxsulluğa qurban getməsinin qarşısını almaq üçün pulundan keçməyə də hazırdır, ancaq Raskolnikov ondan yardım almağın əleyhinədir.

Axşam Rodionla Dmitri Pulxeriya ananın görüşünə gedirlər, Dunyanın nişanlısı da onu görməyə gəlir. Lujin məclisdə özünü çox pis aparır, ortada gərgin mübahisə yaranır, nəticədə Avdotya Romanovna nişanı pozmalı olur. İşbaz Lujinin göyçək, savadlı, ancaq yoxsul bir qızla evlənmək planı pozulsa da, əxlaq taciri təslim olmaq fikrində deyil. Onun ardınca Raskolnikov da anasını, bacısını Razumixinə tapşırıb çıxır, deyir ki, bu səfər biryolluq gedir, bir də qayıtmayacaq.

Doğmalarından ayrılandan sonra o, Sonyanın yanına gedir, ona söz verir ki, gələn görüşlərində qarıyla bacısını öldürmüş qatilin adını ona pıçıldayacaq. Qonşu otaqda qalan Svidriqaylov qapı dalından onların danışığını dinşəyir.

Ondan sonra Raskolnikov müstəntiqlə görüşüb tələb eləyir ki, onu ya tutsun, ya da rahat buraxsın. Porfiri bic-bic gülümsünüb Rodionu inandırmağa çalışır ki, onunla bağlı heç bir şübhəsi yoxdur. Onlar ayrılmaqdaykən cavan rəngsazı müstəntiqin otağına gətirirlər, işgəncə verilmiş binəva fəhlə Porfiri Petroviçin qarşısında diz çöküb qətli boynuna götürür.

Bu mənzərədən möhkəm sarsılan Raskolnikov evə qayıdır, qərara gəlir ki, mübarizəni dayandırmasın.

***

Nişanı pozulduğunun ertəsi günü Lujin başına gələnləri otaq yoldaşı Lebezyatnikovla çək-çevir eləyib harada, hansı məqamda yanıldığını tapmaq istəyir. Hər ikisi mərhum Marmeladovun yas məclisinə dəvət olunsa da, sözü bir yerə qoyub qonşu otağa başsağlığı verməyə keçmirlər. Lujin Sonyanı otağına çağırıb ona toxtaqlıq verir, yetimlərə hər cür yardım göstərməyə hazır olduğunu bildirir, söhbət əsnasında qızın cibinə ehmalca yüz rublluq bir əskinas qoyur. Lebezyatnikov bunu görür.

Raskolnikovu çıxmaqla dəvət olunmuş abırlı qonaqlardan heç biri ehsan məclisinə gəlmir. Masanın ətrafında yas yiyəsinin tanımadığı, haradansa yem iyi alıb gəlmiş əyyaşlar, qocalar, xəstələr, bir də mənzilin sahibi alman qadın oturur. Məclisin qızğın çağında Lujin otağa girib Sonyanı oğurluqda suçlayır, bununla da Raskolnikovdan qisasını almaq istəyir. Ancaq onun kələyi baş tutmur, otaq yoldaşı Lujini ifşa eləyir. Lujin bu rüsvayçılıqdan sonra mənzildən köçməyə məcbur qalır. Ara qarışır, məzhəb itir, yağlı müştərinin əldən çıxdığını görən alman qadın Marmeladovun vərəmli dul arvadını üç uşağıyla birgə küçəyə atır.

Sonyanın qaçıb evinə getdiyini görən Raskolnikov onun dalınca tərpənir, qızın qarşısında tövbə eləyib, törətdiyi cinayəti boynuna alır, onu belə müdhiş bir yola çəkən səbəbi dilə gətirməyə çalışır: “Bilmək istəyirdim görüm, mən bir bitəm, yoxsa hamı kimi insanam? Miskin bir həşəratam, yoxsa haqqım var?.. İndisə görürəm ki, mən qarını yox, özümü öldürmüşəm”.

Onlar İncildən parçalar oxuyurlar, Sonya Raskolnikovu günahını yumağa, divana təslim olmağa çağırır, söz verir ki, onun ardınca sürgünlərə gedəcək, cəhənnəmin dibində də onu tək qoymayacaq. Ancaq Raskolnikov asanlıqla quyruq ələ vermək istəmir, çarpışmağa hələ gücü, iradəsi var.

Xəbər gəlir ki, Marmeladovun dul arvadı havalanıb küçədə oynağa çıxıb, uşaqlarını da günün günorta çağı şəhərin ortasında oxuyub-oynamağa məcbur eləyir. Sonya özünü analığının harayına yetirir. Vərəmli qadın bayılıb yerə yıxılır, sinəsindən qan açılır, az sonra qızlığının otağında canını tapşırır. Uşaqların qayğısını Svidriqaylov üzərinə götürür, Raskolnikova söz verir ki, onları ən yaxşı uşaq evinə yerləşdirəcək, hər birinin adına ayrıca hesab açdıracaq, Sonyanı quyunun dibindən çıxaracaq. Axırda buna da işarə vurur ki, Raskolnikovla Sonyanın gizli söhbətini eşidib, məsələdən halıdır.

***

Raskolnikova baş çəkən Razumixin dostunu inandırır ki, müstəntiq artıq ondan şübhələnmir. Sonra onun otağına Porfiri gəlir, uzun söhbətin axırında tutarlı dəlillərlə Raskolnikovu qətldə günahlandırır, könüllü təslim olarsa, onun işini yüngülləşdirməyə söz verir.

Bundan sonra Raskolnikov əvvəlcədən vədələşdiyi kimi Svidriqaylovla görüşür. Mülkədar onu Amerikaya qaçırmaq üçün kömək, pul təklif eləyir, amma Raskolnikov razılıq vermir.

*davamı növbəti sayımızda*



**F.Uğurlu**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**
"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744
**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# RZA DİQQƏTİ: QARABAĞ MÖVZUSU YARADICILIĞIMDA XÜSUSİ YER TUTUB



Onun çəkdiyi şəkillər sadəcə görüntü deyil, tarix, ağrı, ümid və həqiqətin səssiz şahididir. Bugünkü müsahibədə məşhur fotoqraf Rza Diqqəti ilə sənətin, insanın və həyatın ən incə məqamlarına toxunduq.

**- Rza bəy, ənənəvi olsa da, ilk olaraq elə bu sualdan başlamaq istəyirəm. Fotoqrafiyaya marağınız necə yarandı və sizi bu sənətə gətirən əsas dönüş nöqtəsi hansı oldu?**

- Mən fotoqrafiyaya deyil, ədalətə və gözəlliyə aşiq oldum. Doqquz yaşım olanda Təbrizin küçələrində ayaqyalın uşaqlara baxır, çiçəklərin, ağacların və insanların gözəlliyini izləyirdim. Gördüklərimi dünyaya göstərmək istəyirdim. Sözlərim diqqəti cəlb etmək üçün kifayət deyildi, buna görə də fotoqrafiyanın ən yaxşı vasitə ola biləcəyini düşündüm. Sonra atamın kiçik kamerası bunun sadəcə alət deyil, həqiqətin silahı olduğunu mənə öyrətdi. Fotoqrafiyaya 12-13 yaşlarımda başladım. Bu sənətə xəyallarımın dalınca getmək üçün yox, gözlərimlə gördüyüm ədalətsizliyi, yoxsulluğu və əzabı göstərmək üçün başladım.

Bandar-Abbasda balıq satan bir qadın həyatımı dəyişdi. O, qolumdan tutub dedi: "Əgər məni çəkmək istəyirsənsə, əvvəl kim olduğumu öyrən". Mən onu dinlədim və bir an belə dayanmadan çalışdım.

Mən onun hekayəsini nəşr etdiyim məktəb jurnalı - "Pərvaz" üçün yazmağa qərar verdim. Bu, şahın gizli polisi ilə ilk qarşılaşmam idi. Onlar bütün jurnallarımı götürdülər və həmin qadının hakimiyyət ilə mübarizəsini yazdığım üçün məni döydülər. 19 yaşımda Tehranda universitet divarlarına gizlicə fotolar asdım. Buna görə 22 yaşımda həbs olundum, 3 il həbsdə qaldığım müddətdə 5 ay işgəncə gördüm.

Dönüş nöqtəsi isə çəkdiyim yox, gördüyüm bir görüntü oldu. 1978-ci ildə Tehranda etiraz zamanı əsgərlər atəş açarkən, bir tələbənin qaça-qaça foto çəkdiyini gördüm. Onun cəsarəti həyatımı dəyişdi. Ertəsi gün küçəyə çıxdım və o gündən bəri geri dönmədim.

**- Siz fotoqrafiyanı sadəcə sənət kimi deyil, həm də "insanlar arasında körpü yaradan dil" kimi xarakterizə edirsiniz. Bu fikri necə izah edərsiz?**

- Danışılan sözlər bəzən insanları bir-birindən ayırır, amma şəkillərdə heç vaxt bununla rastlaşmırıq. Məsələn, uşağını qucaqlayan bir ananın şəklini misal gətirək. Bu görüntünü izah etməyə ehtiyac olmur - göz görür, ürək hiss edir.

Kamera güclü vasitədir. İnsanların səsinə səs verir və onların hekayəsini dünyaya çatdırır. Dünyanın müxtəlif yerlərində olmuşam, hər yerdə eyni şeyi görmüşəm: insan kameraya baxanda artıq obyekt deyil, şahidə çevrilir.

Kabil şəhərində yaratdığımız "Aina" media mərkəzi vasitəsilə biz yeni nəsil fotoqraflar, kinorejissorlar və jurnalistlər yetişdirdik. İndi isə "Reza Visual Academy" adlı qeyri-kommersiya təşkilatım vasitəsilə dünyanın müxtəlif yerlərində bu cür imkanlardan məhrum olan uşaqlara və gənclərə fotoqrafiyanı öyrətməyə davam edirəm.

**- Sizin üçün ən yaxşı fotoşəklin əsas xüsusiyyəti nədir - texnika, emosional hekayə, yoxsa doğru anı tutmaq?**

- Görüntü sənin ürəyinə toxunursa, hiss edirsənsə deməli, o yaxşı fotodur. Fotoqrafiyada əsas məsələ hissdir, texnika isə sadəcə vasitədir. Müharibələrdə çəkmişəm, yaralanmışam. Orada heç kim texnika haqqında düşünmür. Əsas olan həqiqətdir. Mən müharibə fotoqrafı yox, sülh fotoqrafıyam.

**- 40 ildən çox müddətdə dünyanın müxtəlif münaqişə zonalarında çalışmısınız. Bu təcrübə sizin dünyagörüşünüzü necə dəyişdi?**

- Bu təcrübə məni nifrət edə bilməyən bir insana çevirdi. Orada anlayırsan ki, "düşmən" yoxdur - sadəcə, insanlar var.

İran inqilabı, İran-İraq müharibəsi, Əfqanıstan, Beyrut, 1990-cı il Bakı hadisələri, Xocalı soyqırımı, Ruanda və Burundidəki soyqırımları, Balkan müharibələri və daha çox hadisələrin şahidi olmuşam. Bütün bunlar məni ümidsiz etmədi. Əksinə, insanlığı daha çox sevməyə vadar etdi.

**- Fotoqrafiya vasitəsilə insan talelərini göstərmək sizə emosional olaraq necə təsir edir?**

- İnsanların gözləri ruhun pəncərəsidir. Onlar mənə etibar edir, mən bu etibarı doğrultmağa çalışıram. Mənim üçün foto sadəcə şəkil deyil, insanların həyatıdır. Mən sürgün həyatı yaşamışam, ona görə qaçqınları daha yaxşı anlayıram. Çəkdiyim hər foto mənə bir sual verir: "Sən bu etibarı doğrulda bildinmi?"

**- "Kamera silahdan daha güclüdür" - bunu hansı hadisə sübut etdi?**

- Ruanda, 1996. 800 min insan qətlə yetirilmiş, 2 milyon nəfər qaçqın düşərgələrinə sığınmış, 12 min uşaq ailəsini itirmiş və ya onlardan ayrı düşmüşdü. Biz onların fotoşəkillərini düşərgələrdə nümayiş etdirdik və bunun nəticəsində 3 min 500 uşaq ailəsinə qovuşdu.

**- Qarabağ mövzusu yaradıcılığınızda xüsusi yer tutur. İlk dəfə bu bölgəyə gəldiyiniz zaman sizi ən çox təsirləndirən nə olmuşdu?**

- Mən həmişə səssizlərin səsi olmuşam. Qarabağ müharibəsi başlayanda və bütün medianın Azərbaycanı aqressor kimi göstərərək erməni qurbanlarından bəhs etdiyini görəndə, baş verənləri öz gözlərimlə görmək üçün bura gəldim. Qarabağda baş verənlərlə bağlı dünya mediasındakı yanlış məlumatlar ağlasığmaz idi. Minlərlə azərbaycanlı - kişilər, qadınlar və uşaqlar qətlə yetirildiyi, yüz minlərlə insan silah gücünə öz evlərindən qovulduğu və əmlaklarının talan edildiyi halda, media tamamilə fərqli bir hekayə təqdim edirdi. Azərbaycan aqressor kimi təqdim olunur, ermənilər isə qurban kimi göstərilirdi. Əsl çətinlik isə həmişə hökumətlərdə, mediada və mədəni institutlarda olan güclü lobbilərlə üz-üzə qalmaqdır; onlar maliyyə və iqtisadi çətinliklər yaradaraq sənin səsini susdurmağa çalışırlar. Fotoşəkillərim, kitablarım, konfranslarım və müsahibələrim vasitəsilə Qarabağın reallıqlarını dünyaya çatdırmağa davam etsəm də, qarşılaşdığım çətinliklər şahid olmağın hansı fədakarlıqlar tələb etdiyini özlüyündə sübut edir.

**- Sizcə, süni intellekt və yeni texnologiyalar fotoqrafiya sənətini necə dəyişəcək?**

- Texnologiya dəyişir, lakin insan ürəyi heç vaxt dəyişmir. Vizual sənətin yarandığı dövrdən etibarən yaradıcı insanlar həmişə öz hisslərini və gündəlik həyatlarını Qobustanın mağaralarında, piramidaların freskalarında, İntibah dövrü rəsmlərində və Azərbaycan xalçalarındakı naxışlar da təsvir etməyə çalışıblar. Və son iki yüz il ərzində, işığın köməyi ilə görüntünü əks etdirən optik qurğunun ixtirasından bəri alətlər dəyişsə də, yaradıcılıq və vizual sənət ideyası eyni olaraq qalır. Texnologiya inkişafdadır və yaradıcı insanlara özlərini daha yaxşı şəkildə ifadə etməyə kömək edir. Süni intellekt görüntülər yarada bilər, lakin hissləri ötürə bilməz.

**- Sosial media dövründə fotojurnalistikanın rolu zəifləyib, yoxsa daha da güclənib?**

- Hər ikisi... Şəkillər çoxalıb, amma insanlar onları hiss etmədən üstündən sürətlə keçirlər. Buna baxmayaraq, inanıram ki, güclü bir foto dünyanı dəyişmək gücünə malikdir. Peşə dəyişib, lakin fotoqrafiyanın gücü və onun duyğu, düşüncə və hərəkət yaratmaq rolu daha da artıb.

**- Sizin üçün ən yaddaqalan fotoşəkil hansıdır və onun arxasında hansı hekayə dayanır?**

- Çəkə bilmədiyim foto. Beyrutda dağıntılar arasında oturan bir uşağı gördüm. Onun şəklini çəkmədim - yanında oturdum. O an mənim üçün ən güclü xatirə qaldı.

**- Heç olubmu şəkillərinizi götürüb müəllif hüquqlarını pozsunlar?**

- Bəli, dəfələrlə... Amma əsas problem oğurluq deyil - kontekstin dəyişdirilməsidir. Bu isə birbaşa fotodakı insana xəyanətdir.

**- Maraqlıdır, fotoqrafiyada istedad vacibdirmi?**

- İstedad qeyri-müəyyən bir anlayışdır, əsl istedad zəhmətdir. Ciddilik, sakitlik, empatiya və səbr tarix boyu yaradıcı insanların əsas keyfiyyətləri və yanaşmaları olub. Əsas olan insanlara diqqət, sevgi göstərmək və onları anlamaqdır. Vacib olan istedad deyil, hiss etməkdir.

*Söhbətləşdi: Havar Şəfiyeva*

# İKT-də bərabərlik...

## Qızların texnoloji biliklərinin artırılması vacibdir

Qızların informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsində rolu yalnız texniki biliklərlə məhdudlaşmır. Onların gətirdiyi müxtəlif baxış bucaqları və yaradıcı yanaşmalar bu sahənin daha inklüziv, innovativ və cəmiyyətə faydalı şəkildə inkişaf etməsinə mühüm töhfə verir. Çünki texnologiya artıq sadəcə alət deyil, gündəlik həyatın ayrılmaz hissəsi və gələcəyin qurulmasında əsas qüvvədir. Bir sözlə, rəqəmsal dünyanın sürətlə dəyişdiyi bir dövrdə qızların texnologiyaya marağını artırmaq, onlara bərabər imkanlar yaratmaq və öz potensiallarını kəşf etmələri üçün ilham vermək cəmiyyətin gələcəyinə qoyulan ən dəyərli investisiyalardan biridir.

Bütün dünya ictimaiyyəti kimi Azərbaycanda da aprelin sonuncu həftəsi İKT-də Qızlar Günü ("Girls in ICT Day") kimi qeyd edilir. Bu gün Birləşmiş Millətlər Təşkilatının (BMT) İKT sahəsində ixtisaslaşmış qurumu olan Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) tərəfindən təsis edilib.

### Ümumi İKT əmək bazarının 26 faizi...

Hazırda İKT sektorunun həmişəkindən daha çox qız və qadınlara ehtiyacı var. Gələcəyin işləri texnologiya və innovasiya ilə idarə olunacaq. Bu gün ibtidai məktəbə daxil olan uşaqların 65 faizi gələcəkdə bugünkü gündə mövcud olmayan işlərdə çalışacaq. Dünyada daha çox qadının İKT sektoruna cəlb edilməsi üçün ciddi səylər göstərilsə də, hətta ən sivil ölkələrdə belə bu yolda bir sıra problemlər və maneələr mövcuddur. Bu sahədə çalışan qadınlar ümumi İKT əmək bazarının cəmi 26 faizini təşkil edir.

Bu gün ölkəmizdə də ənənəvi olaraq geniş qeyd olunur. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən gənc qızların texnologiya sahəsində maarifləndirilməsi, təhsilin əhəmiyyəti və bu sahədə geniş imkanlar barədə məlumatlandırılması, rəqəmsal dünyada fəal iştiraka cəlb edilməsi məqsədi ilə hər il Beynəlxalq İKT-də Qızlar Gününə həsr olunmuş tədbirlər təşkil olunur. Azərbaycanın İKT sektorunda əldə etdiyi nailiyyətlər beynəlxalq təşkilatlar səviyyəsindədir.



### Bacarıq və istedadın cinsiyyəti yoxdur...

Qadınların İKT sektorunda fəal iştirakı həm də stereotiplərin qırılmasına xidmət edir. Çünki uzun illər bu sahə "kişilərə aid peşə" kimi təqdim olunsa da, bu gün uğurlu qadın mühəndislər, startap qurucuları və texnologiya liderləri göstərirlər ki, bacarıq və istedadın cinsiyyəti yoxdur. Hər bir fərd lazımi dəstək və imkan əldə etdikdə böyük nailiyyətlər qazana bilər.

Eyni zamanda, qadınların texnologiya sahəsində təmsil olunması cəmiyyət üçün daha ədalətli və balanslı rəqəmsal məhsulların yaradılmasına da təsir edir. Müxtəlif istifadəçi qruplarının ehtiyaclarını anlayan komandalar daha funksional və əlçatan həllər ortaya qoyur. Bu isə texnologiyanın insan həyatına müsbət təsirini maksimuma çatdırır.

Bütün bunları nəzərə alaraq, qızların və qadınların İKT sahəsinə cəlb olunması yalnız fərdi inkişaf məsələsi deyil, həm də sosial ədalət, iqtisadi tərəqqi və texnoloji innovasiyanın gələcəyi üçün strateji əhəmiyyət daşıyan bir məsələdir. Bu istiqamətdə atılan hər bir addım daha güclü və bərabər bir cəmiyyətin qurulmasına doğru aparır.

*Yeganə BAYRAMOVA*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5198**
**Sifariş: 521**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova